# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

№ 199 (7367)

SƏS

30 oktyabr 2025-ci il.
Qiyməti 60 qəpik

## Leyla Əliyeva və Arzu Əliyeva Qax rayonunda Axar-Baxar Milli Parkının açılış mərasimində iştirak ediblər



4

# Böyük Qayıdış:

## dirçələn torpaqlarımızda yeni dövr!




2

**Prezident İlham Əliyev: "Bütün bu Qarabağ, Şərqi Zəngəzur ən inkişaf etmiş bölgələrdən biri olacaq - nəinki Azərbaycanda, dünya miqyasında"**

# Ukrayna-Rusiya: sülhdən çox uzaq

## Zelenski: Sülh yolunda ən çətin ərazi məsələsidir



11

## Qalib Azərbaycanın növbəti qələbəsi: 30 oktyabr 2020-ci il!



6

## Gəncləri xaricdə təhsilə nə vadar edir?



7

## Tibb hüququ: həkim səhvi və pasiyentin təzminat hüququ



13

## Xəyanətin yeni detalları üzə çıxır



14

## DİQQƏT: Türkiyədə baş verən son zəlzələ Azərbaycanda da gözlənilirmi?



16

# Böyük Qayıdış: dirçələn torpaqlarımızda yeni dövr!

## Prezident İlham Əliyev: "Bütün bu Qarabağ, Şərqi Zəngəzur ən inkişaf etmiş bölgələrdən biri olacaq - nəinki Azərbaycanda, dünya miqyasında"

"Bugünkü reallıq, bugünkü gün, o cümlədən ədalətin təntənəsidir. Ədalətə inanmaq və onu təmin etmək lazımdır. Bax, bizim xalqımız həm ədalətə inanıb, həm də onu təmin edib. Bu torpaqların sahibləri bizik. Düşməni öz torpaqlarımızdan qovmuşuq və bu gün gözəl həyat qururuq". Bu fikirləri Prezident İlham Əliyev Cəbrayıl rayonunun Horovlu kəndində sakinlərlə görüşündə bildirib. Beş il bundan əvvəl Cəbrayıl şəhəri 2020-ci il oktyabrın 4-də Ermənistan silahlı qüvvələrinin işğalından azad edildi. Azərbaycan Prezidenti İlham Əliyevin məlum Sərəncamına əsasən, hər il oktyabrın 4-də Cəbrayıl Şəhəri Günü qeyd olunur. Cəbrayıl rayonunun ərazisində aparılan hərbi əməliyyatlar nəticəsində ümumilikdə 1 şəhər və 90 kənd işğaldan azad edilib. Cəbrayıl 44 günlük Vətən müharibəsində işğaldan azad edilən ilk şəhər kimi tariximizə həkk olundu. Həmin gün Cəbrayıl şəhəri və rayonun Karxulu, Şükürbəyli, Yuxarı Maralyan, Çərəkən, Daşkəsən, Horovlu, Decal, Mahmudlu, Cəfərabad kəndləri işğaldan azad edildi. 44 günlük Vətən müharibəsində Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, xalqımızın inamı və ordumuzun gücü qüdrəti ilə Zəfər tariximizi yazdıq. Ali Baş Komandanımızın rəhbərliyi ilə ordumuz Ermənistana böyük zərbə vurdu və əzəli torpaqlarımız işğaldan azad olundu. Bu gün Azərbaycan işğaldan azad olunan torpaqlarımızda üçrəngli bayrağımız dalğalanır. "Bir neçə gündən sonra biz tarixi Zəfərimizin beşinci ildönümünü qeyd edəcəyik. 8 Noyabr - Zəfər Günü bizim tariximizdə olan ən parlaq səhifədir. Beş il bundan əvvəl tarixi Zəfərimiz bütün dünyaya səs salıb. Azərbaycan xalqı mərd xalqdır, qəhrəman xalqdır, iradəli xalqdır, öz torpağına








bağlı olan xalqdır. Biz sübut etdik ki, işğalla barışmaq fikrində deyildik, halbuki bunu dəfələrlə bəyan etmişdik. Döyüş meydanında 300-dən çox şəhər, qəsəbə, kənd azad edildi və Ermənistan kapitulyasiya aktına imza ataraq təslim olmağa məcbur oldu. O gündən bu yana quruculuq işləri ilə məşğuluq. Bu gün bütün Qarabağ və Şərqi Zəngəzur tikinti meydançasıdır", - jeyə Azərbaycan Prezident bildirib. Bu gün 50 mindən çox insan Qarabağda, Şərqi Zəngəzurda yaşayır, çalışır, təhsil alır. Onlardan təqribən 20 mini keçmiş köçkünlərdir və digərləri isə müxtəlif işlərdə çalışanlardır. "Böyük Qayıdış"ın əyani sübutu bu gün gözünüzün önündədir", - deyə Prezident diqqətə çatdırıb ki, belə gözəl şərait yaratmaqla Azərbaycan dövləti bir daha öz siyasətini göstərir: "İşğal dövründə ovaxtkı köçkünlərlə çoxsaylı görüşlərimdə mən demişdim ki, torpaqlar işğaldan azad olunandan sonra şəhərlərimiz, kəndlərimiz yenidən qurulacaq, əvvəlkindən daha gözəl olacaq. Bugünkü gün bu sözlərin əyani sübutudur. Bu gün sizin həyatınızda yeni dövr başlayır. Siz uzun illər - 30 il ərzində ağır şəraitdə köçkün, qaçqın həyatını yaşamısınız, mənəvi əzablar çəkmisiniz. Xüsusilə işğalın ilk mərhələsində köçkünlərin mütləq əksəriyyəti çadır şəhərciklərində yerləşmişdir."



### "HOROVLU KƏNDİ VƏTƏN MÜHARİBƏSİNİN İLK HƏFTƏSİNDƏ ERMƏNİ İŞĞALINDAN AZAD EDİLMİŞDİR"

Cəbrayıl şəhəri və rayonu 1993-cü il avqustun 23-də işğal edilib. İşğal vaxtı Cəbrayıl rayonu 1 şəhər, 4 qəsəbə və 97 kənddən ibarət idi. İşğal nəticəsində Cəbrayıl rayonuna 13,928 milyard ABŞ dolları həcmində maddi ziyan dəyib. Cəbrayıllı keçmiş məcburi köçkünlər respublikamızın 58 rayonu üzrə 2 minədək yaşayış məntəqəsində, eləcə də qaçqın düşərgələrində, yük vaqonlarında və yataqxanalarda məskunlaşmışdır. İşğala məruz qalarkən rayonun 52 min nəfər əhalisi olub. Cəbrayıldan Birinci Qarabağ müharibəsində 362 nəfər şəhid, 191 nəfər əlil olub. Rayonun 6 sakini Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb. 1050 kvadratkilometri əhatə edən Cəbrayıl rayonunun ərazisi, o cümlədən 100-ə yaxın kənd, 72 ümumtəhsil məktəbi, 150 mədəniyyət ocağı, 132 tarixi abidə işğal vaxtı vəhşicəsinə talan edilib, dağıdılıb. 44 günlük Vətən müharibəsində Azərbaycan Prezidenti, Ali Baş Komandanın rəhbərliyi ilə Müzəffər Ordumuz torpaqlarımızı erməni təcavüzkarlarından azad edərək işğala son qoydu. "Horovlu kəndi Vətən müharibəsinin ilk həftəsində erməni işğalından azad edilmişdir və əslində, bizim Zəfər yürüşümüz bu bölgələrdən başlamışdır. Cəbrayıl, Füzuli istiqamətində irəli gedən bizim əsgər və zabitlərimiz düşmənin bir neçə müdafiə xəttini yara bilmiş, beləliklə, gələcək Zəfər yürüşümüzü şərtləndirmişlər. Allah şəhidlərimizə rəhmət eləsin. Onların əziz xatirəsi daim bizim qəlbimizdə yaşayır, yaşayacaq", - deyə dövlət başçımız bildirib.

### "İNDİ HOROVLU KƏNDİ GÖZ OXŞAYIR"

Bu gün işğaldan azad olunan digər ərazilərimiz kimi, Cəbrayıl da yeni dövrünə qədəm qoyub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 28-də Cəbrayıl rayonunun Horovlu kəndinin birinci mərhələsinin açılışında iştirak edib. Xatırladaq ki, bu kəndin təməlini Prezident İlham Əliyev 2023-cü ilin mayında qoyub. Ümumi sahəsi 248 hektar olan Horovlu kəndində 334 fərdi ev inşa edilib. Evlər 2, 3, 4, 5 otaqlıdır və müasir kommunikasiya şəbəkəsi - su, işıq, qaz, Günəş panelləri, yüksəksürətli internetlə təmin olunub. Evlərin üzərində Qarabağ xalçalarının ornamentləri həkk edilib. Kənddaxili yollara asfalt döşənib. Birinci mərhələdə 94 hektar ərazidə 334 fərdi evin, 624 şagird yerlik məktəb binasının, 220 yerlik körpələr evi-uşaq bağçasının, ikimərtəbəli inzibati binanın, bazar kompleksinin, çoxfunksiyalı iaşə obyektlərinin, tibb məntəqəsinin və idman-sağlamlıq mərkəzinin tikintisi həyata keçirilib. Kənddə tarixən istifadə olunmuş, işğal dövründə dağıdılmış "Əsgər", "Şığı", "Orta", "Gülqasım" və "Xəlifə" kəhrizləri bərpa edilib. Horovlunun su təminatının bir hissəsi məhz bu kəhrizlər hesabına təmin olunacaq.

Qeyd edək ki, burada inşa olunmuş körpələr evi-uşaq bağçasında balacaların rahatlığının təmin olunmasına xüsusi diqqət yetirilib. Bağçada yeməkxana, oyun və musiqi otaqları balacaların ixtiyarına veriləcək.

*Ardı Səh. 3*

# Böyük Qayıdış:

## dirçələn torpaqlarımızda yeni dövr!

**Prezident İlham Əliyev: "Bütün bu Qarabağ, Şərqi Zəngəzur ən inkişaf etmiş bölgələrdən biri olacaq - nəinki Azərbaycanda, dünya miqyasında"**




Əvvəli Səh. 2

Bundan başqa, binada inzibati, kompüter və metodika otaqları yaradılıb. Bağçanın ərazisində uşaqların asudə vaxtlarını maraqlı keçirmələri üçün də şərait yaradılıb. Horovluda müasir tam orta məktəb binası da tikilib. Məktəb binasında tədrisin yüksək səviyyədə aparılması üçün geniş imkanlar mövcuddur. Təhsil ocağının sinif otaqları lazımi dərs vəsaiti və avadanlıqla təchiz olunub. Burada 26 sinif otağı, kimya, fizika, biologiya və informatika, musiqi, rəsm, hərbi hazırlıq otaqları, 4 laboratoriya, kitabxana şagirdlərin ixtiyarına veriləcək. Binada 180 yerlik akt zalı, qapalı idman zalı və yeməkxana da yaradılıb. Məktəbin ərazisində açıq idman meydançası da mövcuddur. "Dövlət sizin üçün bütün şəraiti yaradıb. İndi Horovlu kəndi göz oxşayır. Çox gözəl binalar, məktəb, uşaq bağçası, tibb məntəqəsi və iş yerləri yaradılır. Evlərin sayı 334-dür və burada birinci mərhələdə 1400 insan məskunlaşacaq. Məndə olan məlumata görə, işğala qədər Horovlu kəndində 1500 adam yaşayırdı. İndi təbii ki, ailələr böyüyüb və horovlulular sayı 2 mindən bir qədər çoxdur. İkinci mərhələdə digər vətəndaşlar üçün də evlər tikiləcək. Ancaq hesab edirəm ki, birinci mərhələdə görülən bu işlər təqdirəlayiqdir. Burada rahat, xoşbəxt həyat sürmək üçün bütün imkanlar var", - deyə Prezident sakinlərlə görüşündə bildirib. Eyni zamanda, burada Bayraq meydanından bazar kompleksinə qədər gəzinti yolları salınıb. 3,1 hektar yaşıllıq ərazisində zeytun, çinar və Eldar şamı ağacları əkilib. Torpaq işləri zamanı aşkarlanmış təbii qayalar parka daşınaraq landşaft dizaynının bir hissəsi kimi istifadə olunub. Ərazidə "Əsgər" kəhrizinin su anbarı əsaslı təmir edilib, dekorativ landşaft yaradılıb. Həmçinin parkın ərazisində işğal zamanı dağıdılmış 4 bina tarixi yaddaşın qorunması, həmin dövrün izlərini və reallıqlarını gələcək nəsillərə çatdırmaq üçün əyani sübut kimi saxlanılıb.

Bundan başqa, kənddə ikimərtəbəli inzibati bina inşa edilib.

Binada operativ idarəetmənin və qərarların səmərəli qəbulunun təmin edilməsi məqsədilə müasir situasiya mərkəzi yaradılıb. Mərkəzdə kəndin idarəetməsində Coğrafi İnformasiya Sisteminin (CİS) tətbiqi də nəzərdə tutulur. Kəndin Baş planının CİS platformasına inteqrasiya edilməsi yaşayış məntəqəsinin səmərəli planlaşdırılmasına və idarə edilməsinə imkan verəcək. Bütün torpaq sahələri, tikililər, yollar, su, enerji, qaz, rabitə xətləri bu platformada koordinatlarla yerləşdirilib. Platforma dizayn və tikinti proseslərini izləməyə, dəyişiklikləri xəritəyə tətbiq etməyə, müxtəlif situasiyalara uyğun qərar qəbul etməyə, üçölçülü (3D) bina modelləri, real vaxtda kamera məlumatlarına çıxış imkanları olduğundan mövcud vəziyyəti həm xəritədə, həm də sistem üzərində birbaşa müşahidə etməyə imkan yaradır. Dövlət və özəl qurumlarla inteqrasiya, məlumat mübadiləsi, hesabatlılıq və vizual təqdimatlar baxımından platformanın istifadəsi müasir idarəetmədə innovativ həll hesab olunur.

Cəbrayıl rayonunun Horovlu kəndində yaradılmış şəraitlə tanış olan dövlətimizin başçısı kəndə köçən sakinlərlə görüşərək, onlara mənzillərin açarlarını təqdim edib.

Azərbaycan Prezidenti İlham Əliyev səfəri çərçivəsində Cəbrayıl şəhər məscidinin təməlini qoyub. Məscidin ümumi sahəsi 1530 kvadratmetrdən çox olacaq. Burada eyni vaxtda 615 nəfər ibadət edə biləcək. İkimərtəbəli məscid binasında eyni anda kişilərin və qadınların ibadət etmələri üçün şərait olacaq. Məsciddə icma zalı, avtomobil dayanacağı, söhbətgah yaradılacaq. Məscidin minarələrinin hündürlüyü 34,2 metr, günbəzin hündürlüyü isə 22,6 metr olacaq.

Qeyd edək ki, işğaldan əvvəl Cəbrayıl rayonunda 5 məscid, 40-dan çox ziyarətgah, 20-dən artıq tarixi-memarlıq abidəsi olub. İşğal dövründə digər ərazilərimizdə olduğu kimi, bu rayondakı tarixi-dini abidələrimiz ermənilər tərəfindən məhv edilib. Torpaqlarımızın işğaldan azad edilməsindən sonra Qarabağın və Şərqi-Zəngəzurun tarixi-dini və mədəni abidələrinin bərpası, yenilərinin inşası istiqamətində Azərbaycan dövləti tərəfindən mühüm işlər görülüb. Bu xüsusda 2017-ci ildə Cocuq Mərcanlı kəndində inşa edilən, Şuşa məscidinin bənzəri olan məscidi qeyd etmək olar.

### 2040-CI İLİN SONUNA QƏDƏR CƏBRAYIL ŞƏHƏRİNDƏ 15 000 SAKİN YAŞAYACAQ

Erməni vandalları, təcavüzkarları tərəfindən dağıdılmış əraziləri yenidən qurmaq böyük güc, potensial və zaman tələb edir. "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" və "İşğaldan azad edilmiş ərazilərin Ümumi planı"na əsasən Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarında yerləşən yaşayış məntəqələrinin Baş planları hazırlanıb. Cəbrayıl şəhərinin Baş planına əsasən, şəhərin bərpası və inkişafı üçün 4 mərhələ nəzərdə tutulur. 2026-cı ilin sonunadək təqribən 3 800 nəfərin şəhərdə yerləşəcəyi nəzərdə tutulub. 2040-cı ilin sonuna qədər isə Cəbrayıl şəhərində 15 000 sakinin yaşayacağı proqnozlaşdırılır. Prezident İlham Əliyevin Cəbrayıl rayonuna tarixi səfərləri bir sıra hadisələrlə yaddaşa köçdü. Cəbrayılın işıqlı gələcəyi üçün təməllər qoyuldu. Dövlət başçımız tərəfindən təməli qoyulan Cəbrayıl şəhərində ikinci və üçüncü yaşayış kompleksləri əlamətdar hadisələrdən biridir. İkinci yaşayış kompleksi 5,28 hektar ərazidə salınacaq. Layihə çərçivəsində 5 və 6 mərtəbəli 23 bina inşa ediləcək. Binalarda bir, iki, üç, dörd və beş otaqdan ibarət ümumilikdə 615 mənzil olacaq. Kompleksdə sakinlərin rahat yaşayışı üçün bütün zəruri şərait yaradılacaq. Dövlətimizin başçısı daha sonra şəhərdə inşa ediləcək üçüncü yaşayış kompleksinin təməlini qoyub. Bu kompleksin də ümumi sahəsi 5 hektardan artıqdır. Burada 5, 6 və 7 mərtəbəli 25 binanın tikintisi planlaşdırılır. Layihəyə əsasən binalarda bir, iki, üç, dörd və beşotaqlı olmaqla 746 mənzilin inşası nəzərdə tutulur.

Hər iki kompleks müasir standartlara uyğun şəkildə tikiləcək, zəruri sosial infrastrukturla təchiz ediləcək və Cəbrayıl şəhərinin bərpası istiqamətində atılan növbəti mühüm addım olacaq.

### "BURADA İSTEHSAL OLUNACAQ GÜNƏŞ ENERJİSİ BÜTÜN BU BÖLGƏNİ TƏMİN EDƏCƏK"

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 28-də Hacıqabul-Bəhrəmtəpə-Ermənistan Respublikası ilə dövlət sərhədi avtomobil yolunun 197-ci kilometrindən Cəbrayıl rayonu ərazisində inşa olunan "Şəfəq" Günəş Elektrik Stansiyasına gedən avtomobil yolunun açılışında iştirak edib. IV texniki dərəcəyə uyğun inşa edilən yolun ümumi uzunluğu 11,5 kilometrdir. İki hərəkət zolağından ibarət yolun eni 6 metrdir. Bu yolun inşası ötən ilin dekabrında Azərbaycan Prezidentinin imzaladığı Sərəncama əsasən həyata keçirilib.

Qeyd edək ki, yeni yolun istifadəyə verilməsi bu istiqamətdə nəqliyyat vasitələrinin hərəkətinin təhlükəsizliyinə, əhalinin rahat gediş-gəlişinin təmin edilməsinə öz töhfəsini verəcək.

"Cəbrayıl rayonunda iş yerləri də yaradılır. "Araz Vadisi" sənaye zonası artıq fəaliyyətdədir. Orada üç müəssisə fəaliyyət göstərir. Amma yaxın gələcəkdə onların sayı təqribən 20-yə çatacaqdır. Yəni, iş yerləri ilə bağlı burada heç bir problem olmayacaq", - deyən Prezident bildirib ki, Cəbrayıl şəhərində bu gün iki Günəş Elektrik Stansiyasının təməli qoyulacaq: "Üçüncü, ən böyüyü isə artıq icra müddətindədir. Onu da bildirməliyəm ki, bu bölgənin çox gözəl kənd təsərrüfatı potensialı var. Eyni zamanda, burada Günəş enerjisi də istehsal olunacaq. Burada istehsal olunacaq Günəş enerjisi bütün bu bölgəni təmin edəcək. Çünki Cəbrayıl və Zəngilan rayonlarında icra edilmiş və ediləcək Günəş və su elektrik stansiyalarının gücü təqribən 400 meqavata çatacaq. Yəni, 400 meqavat böyük bir şəhərin tələbatını ödəyən gücdür".





Prezident Cəbrayıl rayonunun Şahvəlli kəndində hər birinin gücü 50 meqavat olan "Şəms" və "Üfüq" Günəş Elektrik stansiyalarının təməlini qoyub. Bu layihə ölkəmizin yaşıl enerji strategiyasının mühüm tərkib hissəsidir və Cəbrayıl rayonunun enerji xəritəsində yeni mərhələnin başlanğıcını qoyur. Stansiyalarda istehsal ediləcək elektrik enerjisinin 75 milyon kilovat-saatı "AzərEnerji" ASC-yə, 131 milyon kilovat-saatı isə "elektrik enerjisinin virtual ötürülməsi" prinsipi əsasında iri istehlakçılarla birbaşa bağlanan alqı-satqı müqavilələri üzrə satılacaq. "Şəms" və "Üfüq" Günəş Elektrik stansiyalarının 2027-ci ildə istismara verilməsi planlaşdırılır.

Bu layihələrin icrası Şərqi Zəngəzurun yaşıl enerji mərkəzinə çevrilməsində Cəbrayıl rayonunun rolunu daha da gücləndirəcək.

Bu gün Böyük Qayıdış çərçivəsində doğma yurda qayıdan əzəli sakinlər hərtərəfli dövlət qayğısı ilə əhatə olunublar. Azərbaycan Prezidentinin bildirdiyi kimi, "Bütün bu Qarabağ, Şərqi Zəngəzur ən inkişaf etmiş bölgələrdən biri olacaq - nəinki Azərbaycanda, dünya miqyasında".

*Nəzakət ƏLƏDDİNQIZI*

# Azərbaycan - etibarlı dost və mühüm tərəfdaşdır!

## Prezident İlham Əliyev Rumıniya Parlamenti Senatının sədrini və Birləşmiş Ərəb Əmirlikləri Federal Milli Şurasının sədrini qəbul edib





***Prezident İlham Əliyev oktyabrın 29-da Rumıniya Parlamenti Senatının sədri Mirça Abrudeanı qəbul edib. Qonaq Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşması, bu xüsusda Vaşinqtonda ABŞ Prezidentinin şahidliyi ilə bəyannamənin imzalanması, Azərbaycan ilə Ermənistan arasında sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında Sazişin paraflanması münasibətilə dövlətimizin başçısını təbrik etdi, bunun bütün regionda sülhün təmin olunmasına və inkişafa xidmət edəcəyinə ümidvarlığını bildirdi.***

Mirça Abrudean bu gün Bakıda Milli Məclisin xətti ilə keçirilən Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsinin 30 illiyinə həsr olunmuş beynəlxalq parlament konfransında iştirakdan məmnunluğunu ifadə etdi, bu tədbirin yüksək səviyyədə təşkil olunduğunu dedi.

Azərbaycan ilə Rumıniyanın dost və tərəfdaş ölkələr olduğunu vurğulayan qonaq əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün geniş imkanların mövcudluğunu vurğuladı. Senatın sədri ikitərəfli münasibətlərin inkişafında parlamentlərarası əlaqələrin, həmçinin beynəlxalq parlament təsisatlarında əməkdaşlığın önəmini qeyd etdi.

Təbriklərə görə təşəkkürünü bildirən dövlətimizin başçısı Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin irəli aparılması ilə bağlı məsələdə Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın xüsusi roluna toxundu, bu istiqamətdə əldə olunmuş nailiyyətlərin bütün region üçün tarixi əhəmiyyət kəsb etdiyini dedi.

Söhbət zamanı Azərbaycan, Rumıniya, Gürcüstan və Macarıstanın iştirakı ilə Buxarestdə Xəzər dənizinin dibi ilə elektrik kabel xəttinin tikilməsi layihəsinin önəmi vurğulandı, bunun ölkəmizin və Mərkəzi Asiya regionu dövlətlərinin bərpaolunan enerji resurslarının Avropa bazarlarına çıxarılması baxımından əhəmiyyətinə toxunuldu. Görüşdə Azərbaycanla Rumıniya arasında müxtəlif sahələrdə əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparıldı.

Prezident İlham Əliyev dünən həmçinin Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) Federal Milli Şurasının sədri Saqr Qobaşın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib. Qonaq, ilk növbədə, Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın salamlarını dövlətimizin başçısına və Azərbaycan xalqına çatdırdı. Saqr Qobaş bildirdi ki, Şeyx Məhəmməd bin Zayed Al Nəhyan bu ilin sentyabrında Azərbaycana, Şuşa şəhərinə səfərini və dövlətimizin başçısı ilə görüşünü məmnunluqla xatırlayır.

Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsinin 30 illiyinə həsr olunmuş beynəlxalq parlament konfransının yüksək səviyyədə təşkil edildiyini deyən Birləşmiş Ərəb Əmirlikləri Federal Milli Şurasının sədri vurğuladı ki, bu tədbir ölkəmizin konstitusional dəyərlərə və suverenliyə nə qədər sadiq olduğunun və əhəmiyyət verdiyinin bariz nümunəsidir.

Qonaq Azərbaycanın inkişafına toxunaraq, bunun Prezident İlham Əliyevin uzaqgörən siyasəti nəticəsində mümkün olduğunu vurğuladı. Saqr Qobaş paytaxt Bakının gözəlliyinin və memarlığının onda dərin təəssürat hissi yaratdığını dedi.

Dövlətimizin başçısı salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Birləşmiş Ərəb Əmirliklərinin Prezidentinə və xalqına çatdırmağı xahiş etdi.

Prezident İlham Əliyev Şeyx Məhəmməd bin Zayed Al Nəhyanla həm Əbu-Dabidə, həm də Azərbaycanda Bakı və Şuşa şəhərlərində görüşlərini və aparılmış müzakirələri məmnunluqla xatırladı.

Dövlətimizin başçısı Birləşmiş Ərəb Əmirliklərinin sabiq prezidenti Şeyx Zayed bin Sultan Əl Nəhyanın uzaqgörən siyasəti və ölkə rəhbərliyinin ardıcıl səyləri nəticəsində Birləşmiş Ərəb Əmirliklərinin uğurlu nümunəvi inkişafını qeyd etdi.

Ulu Öndər Heydər Əliyevin BƏƏ-nin sabiq Prezidenti Şeyx Zayed bin Sultan Əl Nəhyan ilə 1994-cü ildə İslam Əməkdaşlıq Təşkilatının Kasablanka Sammitində görüşü xatırlanaraq, məhz həmin görüşdə ölkələrimiz arasında hazırkı münasibətlərin təməlinin qoyulduğu vurğulandı.

Qonaq regionda sülhün təmin olunması, Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşması münasibətilə Prezident İlham Əliyevi təbrik etdi.

Dövlətimizin başçısı təbriklərə görə təşəkkürünü bildirərək, Ermənistanın Azərbaycana qarşı 30 il davam edən işğalından sonra hər iki tərəfin hazırda sülh şəraitində yaşamağa uyğunlaşdığını bildirdi.

Prezident İlham Əliyev bundan sonra da ölkəmizin regionda davamlı sülhün təmin olunması, nəqliyyat layihəsinin, xüsusilə TRIPP xətti üzrə nəqliyyat bağlantılarının yaradılması istiqamətində səylərini davam etdirəcəyini dedi. Söhbət zamanı Azərbaycanla BƏƏ arasında münasibətlərin strateji tərəfdaşlıq səviyyəsində bütün istiqamətlər üzrə uğurla inkişaf etdiyi qeyd olundu. Bu xüsusda "Masdar" şirkətinin Azərbaycana bərpaolunan enerji sektoruna sərmayələrinə, SOCAR-ADNOC əməkdaşlığına, qarşılıqlı investisiyalara toxunuldu.

# Leyla Əliyeva və Arzu Əliyeva Qax rayonunda Axar-Baxar Milli Parkının açılış mərasimində iştirak ediblər







Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva və Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyevanın iştirakı ilə Qax rayonunda Axar-Baxar Milli Parkının açılış mərasimi keçirilib. AZƏRTAC xəbər verir ki, tədbir çərçivəsində ağacəkmə aksiyası təşkil olunub. Ərazidə iqlim və torpaq şəraitinə uyğun hesab olunan Eldar şamı, qara şam, adi şam, zeytun, daş palıdı, Arizona sərvi və piramidal sərv ağacları əkilib. Leyla Əliyeva və Arzu Əliyeva, həmçinin Milli Parkın ərazisi və təbiəti ilə yaxından tanış olublar.



Eyni zamanda, ekosistemdə balansın bərpası və biomüxtəlifliyin qorunmasına dəstək məqsədilə Acınohur çölü ərazisində 10 ceyran, 2 çöl pişiyi (qamışlıq və meşə pişiyi) və 4 vəhşi quş, o cümlədən 2 bərqud, 1 bozqır qartalı və 1 ağbaş kərkəs təbii mühitə buraxılıb.

Açılış mərasimi çərçivəsində Leyla Əliyeva və Arzu Əliyeva Əyriçayа 20 min balığın buraxılması tədbirində də iştirak ediblər. Buraxılan balıqların 5 mini forel, 15 mini isə sazan növünə aiddir. Qeyd edək ki, Axar-Baxar Milli Parkı Prezident İlham Əliyevin 2025-ci il 14 iyul tarixli Sərəncamı ilə yaradılıb.

# Milli Məclisdə "Konstitusiya və Suverenlik İli" çərçivəsində Beynəlxalq Parlament Konfransı keçirilib




***Oktyabrın 29-da Milli Məclisdə Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsinin 30 illiyinə həsr olunmuş "Konstitusiya müasir dünyada dövlətlərin müstəqilliyinin və suverenliyinin təməli kimi" mövzusunda beynəlxalq parlament konfransı keçirilib.***

Tədbirdə 20-dək ölkənin parlament nümayəndə heyətləri, 5 beynəlxalq təşkilatın təmsilçiləri iştirak ediblər.

Konfransı giriş nitqi ilə açan Milli Məclisin sədri Sahibə Qafarova bildirib ki, "Konstitusiya müasir dünyada dövlətlərin müstəqilliyinin və suverenliyinin təməli kimi" mövzusuna həsr edilən beynəlxalq parlament konfransının Azərbaycanda keçirilməsinin dərin rəmzi mənası var. Bu il biz müstəqil dövlətimizin ilk Konstitusiyasının qəbul olunmasının 30 illiyini qeyd edirik. Bununla əlaqədar 2025-ci il Azərbaycanda "Konstitusiya və Suverenlik İli" elan olunmuşdur.

Azərbaycan dövlətçiliyinin tarixi ağır sınaqlar və parlaq qələbələr tarixidir. 1991-ci ildə müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan siyasi, iqtisadi, hərbi və digər sahələrdə mürəkkəb vəziyyətə düşmüşdü. Ölkəmizə qarşı silahlı təcavüz və daxili böhran dövlət müstəqilliyinin itirilməsi təhlükəsini törətmişdi.

Belə bir şəraitdə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin əzmlə həyata keçirdiyi tarixi missiya ölkəmizin qarşısında dayanan problemləri aradan qaldırmağa, vəziyyəti sabitləşdirməyə, qanunçuluğu bərpa etməyə və müasir dövlətin əsaslarını yaratmağa imkan verdi. Onun rəhbərliyi ilə hazırlanmış və 1995-ci ildə qəbul edilmiş Konstitusiya ölkənin inkişaf strategiyasını irəli sürdü, xalqın suverenliyi, qanunun aliliyi, hakimiyyət bölgüsü prinsiplərini müəyyən etdi, insan hüquqlarının və azadlıqlarının müdafiəsi üçün təminatlar yaratdı. Bu mənada dövlətimizin əsas qanunu təkcə hüquqi sənəd deyil, həm də milli tariximizin yeni dövrünün, gələcəyə inam və quruculuq dövrünün simvoludur.

Milli Məclisin sədri deyib ki, Ulu Öndər Heydər Əliyevin başladığı yol Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilir. Son iyirmi iki il Azərbaycanın dövlətçilik tarixinə dinamik və hərtərəfli inkişaf dövrü kimi daxil olmuşdur. Bu dövrdə həm də Konstitusiyamızın real gücü praktikada sınaqdan keçmişdir.

Bildiyiniz kimi, ölkəmizin beynəlxalq miqyasda tanınan ərazisinin 20 faizi otuz ilə yaxın Ermənistanın işğalı altında olmuşdur. Bu dövrdə Konstitusiya dövlətimizin ərazi bütövlüyü və suverenliyi uğrunda mübarizənin hüquqi, mənəvi və fəlsəfi əsasını təşkil edirdi. Ölkəmizin əsas qanunu silahlı təcavüzə son qoymaq və sülh yaratmaq uğrunda diplomatik səylərimizin təməlində dayanmışdı.

2020-ci ilin Vətən müharibəsində və 2023-cü ilin antiterror əməliyyatında əldə edilən tarixi qələbələr nəticəsində Azərbaycan özü beynəlxalq hüququn qüvvəsini bərpa etdi. Dövlətimizin ərazi bütövlüyünün və suverenliyinin bərpə edilməsi ilə Azərbaycan Konstitusiyasında müəyyənləşdirilmiş prinsiplər real həyatda öz təcəssümünü tapdı.

Diqqətə çatdırılıb ki, ölkəmizin Konstitusiyası ümumbəşəri dəyərlərə sadiq olaraq bütün dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamağı və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərməyi başlıca niyyətlərdən biri kimi bəyan edib. Eyni zamanda, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev cari ilin sentyabrında BMT Baş Assambleyasının 80-ci sessiyasındakı çıxışında beynəlxalq hüquqa əsaslanan sülh və inkişafı, dövlətlərin daxili işlərinə qarışmamağı, qarşılıqlı hörmət və əməkdaşlığı Azərbaycanın baxışları kimi təqdim edib. Azərbaycanın regional və qlobal səviyyədə bütün fəaliyyəti - həyata keçirdiyi irimiqyaslı enerji və nəqliyyat layihələri, sivilizasiyalar və mədəniyyətlər arasında dialoqu təşviqi, bu gün dünyanın üzləşdiyi müxtəlif çağırışlarla mübarizədə göstərdiyi səylər bu niyyət və baxışları əks etdirir.

Spiker xüsusilə qeyd edib ki, 30 illik işğal dövrünə baxmayaraq, məhz Azərbaycan Vətən müharibəsi başa çatdıqdan dərhal sonra sülh təşəbbüsü ilə çıxış edib. Sülhün əsasını təşkil edən 5 təməl prinsip və sülh sazişinin layihəsi də Azərbaycan tərəfindən təqdim olunub. Cari ilin avqust ayında Vaşinqtonda Amerika Birləşmiş Ştatları Prezidentinin şahidliyi ilə Azərbaycan Respublikası Prezidentinin və Ermənistan Respublikası Baş nazirinin Birgə Bəyannamə imzalaması və iki ölkə arasında sülh sazişinin paraflanması münaqişə dövrünə son qoymuş və regionumuzda uzunmüddətli sülh və sabitliyin yolunu açıb.

Konfrans iştirakçılarının diqqətinə çatdırılıb ki, indiki qlobal geosiyasi dinamika şəraitində məhz Konstitusiya qaydası dövlətlərə öz dayanıqlığını qorumaqda və milli maraqları əsasında inkişaf etməkdə kömək göstərir. Azərbaycanın təcrübəsi də əyani surətdə göstərir ki, Konstitusiya xalqın iradəsindən və milli dəyərlərdən güc alanda, hakimiyyət ilə xalq arasında uzlaşmanı təmin edəndə cəmiyyəti birləşdirən və dövlətin müstəqilliyini qoruyan böyük qüvvəyə çevrilir.

Azərbaycan Respublikasının Konstitusiyası xalqımızın tarixi təcrübəsini və azadlıq əzmini əks etdirir. O, milli birliyimizi möhkəmləndirir və cəmiyyətin sabit inkişafına kömək göstərir.

Müasir dövlətlər arasında siyasi, iqtisadi, hüquqi və humanitar əlaqələr getdikcə daha intensiv və dinamik xarakter alır. Bu baxımdan dövlətlərin suveren bərabərliyi və müstəqilliyi, daxili işlərə qarışmamaq və ərazi bütövlüyünə hörmət kimi beynəlxalq prinsiplərin möhkəmləndirilməsi xüsusi əhəmiyyət kəsb edir. Bununla əlaqədar parlamentlərarası əməkdaşlığın rolu da güclənir.

Sahibə Qafarova çıxışında deyib ki, bu gün parlament diplomatiyası ən mühüm yumşaq güc alətlərindən birinə çevrilib. Parlament təmasları vasitəsi ilə qarşılıqlı anlaşma körpüləri qurulur, ən kəskin məsələlər hüquq bərabərliyi və qarşılıqlı hörmət əsasında həll edilir. Biz hesab edirik ki, ənənəvi diplomatiyanı uğurla tamamlayan parlament diplomatiyası sülhün və qarşılıqlı anlaşmanın möhkəmləndirilməsində daha böyük rol oynaya bilər.

Qeyd olunub ki, müasir dövrdə bəşəriyyət saxta informasiyanın yayılmasından və hibrid hücumlardan başlamış xalqların mədəni və ideoloji müstəqilliyinə edilən qəsdlərə qədər müxtəlif yeni təhdidlərlə qarşılaşır. Bu təhdidlərə bizim cavabımız qəti və prinsipial olmalıdır. Biz qanunun aliliyi və Konstitusiyaya hörmət əsasında suverenliyimizi möhkəmləndirməliyik. Yalnız birgə səylərlə yeni çağırışlara və təhdidlərə qarşı mübarizə aparmaq, bütün dünyada sülhü və sabitliyi möhkəmləndirmək mümkündür. Digər tərəfdən, milli maraqların müdafiəsi, insan hüquqlarının və azadlıqlarının təmin edilməsi də Konstitusiya dəyərlərinə sadiqliyimizdən çox asılıdır.

Konstitusiya prinsipləri ölkələr arasında ahəngdar qarşılıqlı əlaqə üçün təməl rolunu oynayır, beynəlxalq münasibətlərdə qarşılıqlı hörmət və etimadın möhkəmlənməsinə şərait yaradır. Azərbaycan dövləti və parlamenti ardıcıl olaraq məhz bu yanaşmanı həyata keçirir.

Çıxışına yekun vuran Milli Məclisin sədri inamını ifadə edib ki, bu konfrans sülh, ədalət və dövlətlərin rifahı naminə ətraflı fikir mübadiləsi aparmağa, xalqlarımız və parlamentlərimiz arasında qarşılıqlı anlaşmanı gücləndirməyə şərait yaradacaq. Biz əminik ki, konstruktiv dialoq və birgə səylər Konstitusiya dəyərlərini daha da möhkəmləndirmək yollarını tapmağa kömək göstərə bilər.

Sahibə Qafarova Azərbaycan parlamenti adından forum iştirakçılarına səmərəli iş və maraqlı diskussiyalar arzulayıb.

Sonra konfrans iştirakçıları müasir dövlətlərin hüquqi əsaslarının möhkəmləndirilməsində konstitusiyaların rolu, dövlətlərin suverenliyi və milli müstəqilliyinin qorunması məsələlərinə dair fikirlərini bölüşüblər.

Tədbirdə çıxış edən Birləşmiş Ərəb Əmirliklərinin Federal Milli Şurasının sədri Saqr Qobaş Azərbaycan Konstitusiyasının qəbul edilməsinin 30-cu ildönümü münasibətilə ilə təbriklərini çatdıraraq, ölkənin suverenliyinin möhkəmləndirilməsi, dayanıqlı inkişafın təmin edilməsində Konstitusiyanın rolunu qeyd edib. Son 30 il ərzində Azərbaycanda milli iradə, siyasi uzaqgörənlik sayəsində hərtərəfli inkişafın müşahidə olunduğunu söyləyib. Bildirib ki, Azərbaycan təcrübəsi Konstitusiyanın cəmiyyət və dövlət arasında münasibətləri tənzimləyən, dövlətin konstitusion quruluşunu təsbit edən, ölkənin iqtisadi, siyasi, sosial, xüsusiyyətlərini özündə əks etdirən, habelə regional və beynəlxalq münasibətlərdə mövqeyini müəyyən edən bir sənəd olduğunun bariz nümunəsidir.

Saqr Qobaş Azərbaycanda həyatın bütün sahələrində, o cümlədən təhsil, səhiyyə, ətraf mühitin qorunması, enerji təhlükəsizliyinin təmin edilməsi istiqamətində təqdirəlayiq nailiyyətlərin əldə edildiyini vurğulayıb. Birləşmiş Ərəb Əmirlikləri ilə Azərbaycan arasında qarşılıqlı hörmətə əsaslanan əməkdaşlığın gələcəkdə daha da möhkəmləndirilməsinə inamını ifadə edib. Hər iki ölkənin qanunverici orqanlarının Konstitusiya dəyərlərinin və prinsiplərinin həyata keçirilməsində önəmli rolundan bəhs edib. Azərbaycan dövləti və xalqına davamlı tərəqqi və rifah arzulayıb.

Sonra Pakistan İslam Respublikası Senatının sədri Syed Yusuf Raza Gilani çıxış edərək, Azərbaycan üçün əlamətdar hadisə - ölkə Konstitusiyasının qəbul edilməsinin 30 illiyi münasibəti ilə keçirilən tədbirdə iştirakından məmnunluğunu ifadə edib. O, Konstitusiyanın dövlət və xalq arasında körpü rolunu oynadığını, cəmiyyətdə ədalətin təmin edilməsi, dövlətçiliyin əsaslarının müəyyənləşdirilməsi ilə bağlı məsələlərin, insanların hüquq və azadlıqlarının təsbit edildiyi ali sənəd olduğunu bildirib. Ümummilli Lider Heydər Əliyevin Azərbaycanın demokratik prinsiplərə əsaslanan Konstitusiyasının hazırlanmasında və qəbul edilməsində müstəsna xidmətlərini xüsusi qeyd edib. Pakistan Senatının spikeri Prezident İlham Əliyevin Azərbaycan dövlətinin suverenliyini və müstəqilliyini qorumaq, ərazi bütövlüyünü təmin etmək və ölkənin beynəlxalq mövqeyini möhkəmləndirmək sahəsində atdığı mühüm əhəmiyyətli addımları təqdir edib. 2025-ci ilin Azərbaycanda "Konstitusiya və Suverenlik İli" elan edilməsinin ölkə başçımızın bu dəyərlərə sadiqliyinin nümunəsi olduğunu vurğulayıb. Azərbaycan Prezidentinin ölkəmizdə qanunun aliliyinə əsaslanan ədalətli, müasir cəmiyyətin qurulması, multikulturalizm və tolerantlığın inkişafı, regionda sülhün, sabitliyin, təhlükəsizliyin bərqərar olması istiqamətində gördüyü işləri yüksək qiymətləndirib.

Konfransda çıxış edən Tacikistan Respublikası Ali Məclisinin Nümayəndələr Palatasının sədri Fayzali İdizoda Azərbaycan Konstitusiyasının 30 illiyi ilə əlaqədar təbriklərini çatdıraraq, Konstitusiyanın hər bir müstəqil dövlətin hüquqi, siyasi və sosial əsasını təşkil edən, dövlətin suverenliyini təsdiqləyən ali hüquqi sənəd olduğunu qeyd edib. Tacikistanla Azərbaycan arasında dərin tarixi köklərə, ortaq mədəni dəyərlərə, adət-ənənələrə əsaslanan dostluq əlaqələrinin olduğunu söyləyib. Ölkələrimiz arasında münasibətlərin möhkəmlənməsində dövlət başçılarının qarşılıqlı səfərlərinin, mütəmadi təmaslarının mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıb. İkitərəfli əlaqələrin inkişaf etdirilməsində parlamentlərin rolunu qeyd edərək, hər iki ölkənin qanunverici orqanları arasında əməkdaşlıq haqqında sazişin imzalandığını və bunun ölkələrimiz arasında siyasi, iqtisadi, elmi-texniki, sosial-mədəni, humanitar və digər sahələrdə əməkdaşlığı daha da genişləndirilməsində vacibliyindən danışıb.

Fayzali İdizoda Azərbaycan Konstitusiyasının ölkənin əsas siyasi-hüquqi sənədi kimi ən dəyərli və mütərəqqi ünsürləri özündə cəmləşdirdiyini, dövlət müstəqilliyini, suverenliyini və beynəlxalq nüfuzunu möhkəmləndirdiyini bildirib. Bu sənəddə dayanıqlı inkişaf, milli birlik və daxili sabitlik üçün möhkəm təməllərin təsbit edildiyini və bunun ölkənin yeni tarixi şəraitdə davamlı tərəqqisini təmin etdiyini deyib.

Tədbirdə Rumıniya Parlamenti Senatının sədri Mirça Abrudean çıxış edərək, Rumıniyanın Azərbaycanla əlaqələrinə önəm verdiyini bildirib. Azərbaycan Konstitusiyasının 30 illiyinin qeyd edilməsini ölkə həyatında mühüm hadisə kimi dəyərləndirib. Konstitusiyanın dövlətçilik ənənələrinin möhkəmləndirilməsi, ölkənin siyasi sisteminin əsaslarının təmin edilməsi, ərazi bütövlüyünün, suverenliyin qorunması, qanunun aliliyi, insan hüquq və azadlıqlarına əməl edilməsi baxımından önəmli olduğunu söyləyib. Konstitusiyanın 30-cu ildönümünə həsr olunmuş Beynəlxalq Parlament Konfransının keçirilməsinin qanunverici orqanlar arasında əməkdaşlığın əyani sübutu olduğunu deyib. Azərbaycan Konstitusiyasının ölkəmizin və xalqımızın gələcək inkişafı üçün möhkəm təməl rolunu oynadığını vurğulayıb.

Konfransda Belarus Milli Assambleyası Respublika Şurasının sədr müavini Vladislav Tatarinoviç, Gürcüstan Parlamentinin sədr müavini Nino Tsilosani, Serbiya Milli Assambleyasının sədr müavini Covan Canciç, Kamboca Milli Assambleyası sədrinin ikinci müavini Sot Vonq, Türkiyə Böyük Millət Məclisinin üzvləri Hasan Turan və Şamil Ayrım, Özbəkistan Ali Məclis Senatının komitə sədri Əbdulhakim Eşmuratov, Rusiya Federal Məclis Federasiya Şurasının deputatı Natalya Kuvşinova, Pakistan Milli Assambleyanın deputatı Sofiya Said Şah, Qazaxıstan Parlament Məclisinin üzvü Aydos Sarım, İtaliya Deputatlar Palatasının üzvü Eucenio Zoffili, Malayziya Senatının üzvü Mohd Hatta Bin Ramli və Cənubi Afrika Milli Assambleyasının üzvü Verner Horn çıxış edərək Azərbaycan Konstitusiyasının qəbul edilməsinin 30 illiyi münasibətilə səmimi təbriklərini, dəvətə və yüksək təşkilatçılığa görə Milli Məclisin sədri Sahibə Qafarovaya minnətdarlıqlarını bildiriblər. Qeyd olunub ki, bu konfrans Konstitusiya irsinin təntənəsinin bariz nümunəsi olmaqla yanaşı, qanunverici orqanlar arasında faydalı fikir mübadiləsi və əməkdaşlıq üçün səmərəli platforma yaradır.

Çıxışçılar öz ölkələri ilə Azərbaycanın konstitusiya tarixləri arasında paralellər aparıblar, müstəqillik və suverenlik uğrunda mübarizədə oxşar tarixi təcrübələrə diqqət çəkiblər.

Qeyd olunub ki, Azərbaycan Respublikasının Konstitusiyası xalqın arzularının və milli iradəsinin ifadəsi kimi formalaşmış, Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi strateji məqsədlərin hüquqi əsasını yaratmaqla, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin möhkəm zəminini təşkil etmişdir.

Konfrans iştirakçıları Azərbaycanın bu gün Qarabağ Zəfəri ilə taclanan yeni bir tarixi dövr yaşadığını qeyd ediblər. Vurğulanıb ki, Azərbaycan bu gün yalnız ərazi bütövlüyünün deyil, həm də konstitusional quruluşunun və suverenliyinin təntənəsini yaşayır. Sonra konfransda Qlobal Tolerantlıq və Sülh Şurasının sədri Əhməd Əlcarvan, Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Aktotı Raimkulova, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının baş katibi Asəf Hacıyev və Türk Dövlətləri Parlament Assambleyasının baş katibinin müavini Muhammet Alper Hayali çıxış ediblər.

Onlar bildiriblər ki, konstitusiya prinsiplərinin möhkəmləndirilməsi təkcə bir dövlətin tarixini və irsini qorumaq deyil, həm də uzunmüddətli dayanıqlı gələcəyin təminatıdır. Yalnız qarşılıqlı hörmət və suverenliyə riayət prinsipləri əsasında xalqlar arasında bərabərlik, dostluq və qarşılıqlı fayda üzərində qurulan əməkdaşlıq sülh və tərəqqinin əsasını təşkil edir.

Konfransda çıxış edənlər Azərbaycanın sülhə, tərəqqiyə və əməkdaşlığa verdiyi töhfələri yüksək qiymətləndirərək, Azərbaycan Milli Məclisi ilə əməkdaşlıqdan məmnunluqlarını ifadə ediblər. Onlar Azərbaycanın daha böyük uğurlar qazanacağına əminliklərini bildiriblər və parlamentlərarası əməkdaşlığın sülhə və bəşəriyyətin rifahına xidmət edəcəyinə inandıqlarını vurğulayıblar.

***Elçin Bayramlı***

# Qalib Azərbaycanın növbəti qələbəsi: 30 oktyabr 2020-ci il!

30 ilə yaxın Ermənistanın işğalında qalan yurd yerlərimiz bir-birinin ardınca azad olunur, həmin torpaqlarda bayraqlarımız dalğalanırdı. Artıq Vətən müharibəsinin 34-cü günü idi. Tarixi zəfərimizi yazırdıq. Yaşadığımız və şahidi olduğumuz hadisələr bunu deyirdi. Beş il bundan öncə, 30 oktyabrda "Müzəffər Azərbaycan Ordusu Cəbrayıl rayonunun Xudaverdili, Qurbantəpə, Şahvələdli, Xubyarlı, Zəngilan rayonunun Aladin, Vejnəli, Qubadlı rayonunun Kavdadıq, Məmər, Mollalı kəndlərini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!" - deyə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev özünün "Twitter" hesabında bildirmişdir. Bu və ya digər ərazilərin işğaldan azad olunması Azərbaycanın güclü və qüdrətli bir ölkə olduğunu təqdim edirdi. 44 günlük vətən müharibəsinin reallıqları bir daha təsdiqlədi ki, Azərbaycan Prezidenti İlham Əliyev həqiqətən də böyük siyasi xadim, strateqdir və hər bir məsələnin müdrikliklə həllinə nail olur. 44 günlük Vətən müharibəsində 30 ilə yaxın işğal altında olan ərazilərimizin azad olunması, münaqişənin bitməsi xalqımızın tarixinə qızıl hərflərlə Zəfərimizi yazdı. Xalqımızın Azərbaycan Prezidenti İlham Əliyevin ətrafında sıx birləşməsi, həmrəyliyi, milli birliyi, vahid amal uğrunda birləşməsi nəticəsində 44 günlük Vətən müharibəsində 30 il ərzində silahlanmış, istehkamlar qurmuş düşmən üzərində Qələbəmizə nail olduq. Bu Qələbə xalqımızın əzmini, qəhrəmanlığını bütün dünyaya nümayiş etdirdi və sübut etdi ki, Azərbaycan xalqı qələbəni döyüş meydanında əldə etdi.

## "MƏĞLUBEDİLMƏZ ERMƏNİ ORDUSU" MİFİ DAĞIDILDI

Zəfər tarixini yazmış Azərbaycan Ermənistana sarsıdıcı zərbə vurmaqla "məğlubedilməz erməni ordusu" mifini dağıtdı və Ermənistan hakimiyyətini 44 gün ərzində təslim olmağa vadar etdi. 44 günlük Vətən müharibəsində Azərbaycan dünyaya siyasi və hərbi gücünü göstərdi. Ermənistan və onun havadarları tərəfindən hərbi əməliyyatları dayandırmaq üçün Azərbaycana diplomatik və siyasi təzyiqlər göstərildi və Prezident İlham Əliyev siyasi iradəsini nümayiş etdirdi, prinsipial mövqeyindən dönmədi. Güclü dövlət, güclü ordu strategiyası torpaqlarımızın işğaldan azad olmasına səbəb oldu.

2020-ci il noyabrın 10-da Azərbaycanın Qələbəsini təsdiqləyən üçtərəfli Bəyanat imzalandı. Dəmir yumruğun gücünə imzalanan bəyanata əsasən, 10 noyabr 2020-ci il tarixində Moskva vaxtı ilə saat 00.00-dan etibarən, Dağlıq Qarabağ münaqişəsi zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması elan olundu.

Artıq 30 ilə yaxın həsrətlə gözlədiyimiz torpaqlarımız bu gün dirçəlir. O yerlərə yeni nəfəs gəlib. Xarı bülbülümüz nigaran baxışlarını yollardan çəkilib, hər gəlib-gedən əzəli sakinlərinə "Xoş gəldin", - deyir. Təbiət də oyanıb. Bu oyanış böyük bir müjdəyə susuz idi. 44 gün davam edən Vətən müharibəsində qəhrəmanlıq göstərən vətən oğullarının şücaəti, mücadiləsi milyonlarla insanlara QƏLƏBƏ sevincini yaşatdı. Gözün aydın AZƏRBAYCAN! - deyirik, bir daha. Bu elə bir gündür ki, zaman-zaman Azərbaycan xalqının torpaq uğrunda savaşını, böyüklüyünü, bütövlüyünü, lazım gələndə bir yumruq olaraq birləşməsini yetişən nəsillərə illər, qərinələr, əsrlər sonra belə təqdim edəcək. Bu qələbədə minlərlə azərbaycanlı gəncin payı var. Azərbaycanın qələbə sorağı dünyaya yayıldı. Zəfər günümüzü yaşadıq. Vətən oğulları hər qarış torpağın müdafiəsində dayandılar və Şəhid də oldular, qazi də. Azərbaycan tarixi ədaləti bərpa etdi. Şərəfli yol seçərək, şəhidlik zirvəsinə yüksələn oğullar Vətən savaşında şücaət göstərərək, düşmənə dönməzliyini sübut edərək vətən qarşısında öz borclarını vermiş oldular. Hərb meydanında igidlik göstərən, vətən torpağını





düşməndən qanı, canı bahasına azad edən Azərbaycan bayrağını uca tutan vətən oğullarının bu qələbənin qazanılmasında rolu danılmazdır. Onların hər biri ilə qürurlanır, onlara borcluyuq. Vətənimizin ərazi bütövlüyünün qorunması ilə bağlı şərəfli vəzifəsini yerinə yetirən vətən oğulları dövlətimiz tərəfindən bir sıra medal və ordenlərə layiq görüldülər.

Çox keçmədi ki, xalqımızın igidlik göstərmiş övladları, gəncləri dövlət başçısının Sərəncamı ilə yüksək adlara layiq görüldülər. Bu onlara qarşı bir ehtiramdır, sevgidir. Azərbaycanda Vətən Müharibəsi ilə bağlı orden və medallar və fəxri ad təsis edildi. "Cəsur döyüşçü", "Suqovuşanın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Vətən müharibəsi iştirakçısı" medalları və s. Vətən müharibəsində torpaqlarımızın düşməndən azad olunmasında qəhrəmanlıq, şücaət göstərən şəxslər təltif olundular. Bundan başqa, döyüşdə qəhrəmanlıq, şücaət göstərən vətən oğullarına "Vətən Müharibəsi Qəhrəmanı" adı da verildi. Bütün bunlar dövlətimizin mərd, mübariz, vətənpərvər, igid övladlarına diqqətinin, qayğısının təzahürüdür.

## İŞĞALÇI ERMƏNİSTANIN MƏĞLUBİYYƏTİNİN GÖSTƏRİCİSİ - QƏNİMƏTLƏR PARKI

Paytaxtımızda açılışı olan Hərbi Qənimətlər Parkı vətən müharibəsində Ordumuzun gücünün, işğalçı Ermənistanın məğlubiyyətinin göstəricisidir. Parkın adı hər şeyi demiş olur. 44 günlük müharibədə Azərbaycan ordusunun gücü nəticəsində erməni ordusu məhv edilərək, məğlubiyyət uğradı. Bu gün Bakıdakı Hərbi Qənimətlər Parkı 44 günlük müharibənin gedişi, Azərbaycan ordusunun qalibiyyəti ətrafında olan fikirləri əks etdirir. Belə ki, ermənilərin döyüş meydanından qoyub qaçdığı atıcı silahlar, ağır texnikalar, raket kompleksləri, hərbi nəqliyyatlar və digər sursatlar qənimətlər sırasındadır. Zəfər paradının ən yaddaqalan və rəmzi kompozisiyalardan biri olan Azərbaycan Silahlı Qüvvələrinin işğaldan azad olunan torpaqlarda düşməndən qənimət götürdüyü 2000-dən çox avtomobilin nömrə nişanından hazırlanan lövhə də parkın ərazisindədir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Hərbi Qənimətlər Parkının açılışı zamanı lövhənin qarşısında çıxış edərkən bildirmişdir ki, Birinci Qarabağ müharibəsindən sonra ermənilər azərbaycanlıların şəxsi maşınlarının nömrələrini götürüb işğal edilmiş torpaqlarda nümayiş etdirirdilər. Bir lövhə düzəltmişdilər, göstərsinlər ki, azərbaycanlılar öz dədə-baba torpaqlarından didərgin salınıb: "Əslində, bu hərəkət Ermənistanın Azərbaycana qarşı, xalqımıza qarşı etdiyi etnik təmizləmənin təzahürü idi. Çünki mülki vətəndaşlar öz əmlakını qoyub, bəziləri ayaqyalın işğal edilmiş torpaqlardan çıxmağa məcbur olmuşdular. Ermənilər bu lövhəni xarici turistlərə nümayiş etdirərək öz ordusunun gücünü göstərməyə, mif yaratmağa çalışırdılar ki, guya Ermənistanın məğlubedilməz ordusu var".

## "BUDUR, ONLARA VERİLƏN CAVAB. QARABAĞ AZƏRBAYCANDIR!"

Artıq bu gün ermənilərin yaratmaq istədikləri mif dağıdılıb. Ölkəmizin dinamik inkişafı, güclü ordu quruculuğu, beynəlxalq münasibətlərdə Azərbaycanın milli maraqlarının müdafiəsi və təmin edilməsi ölkəmizin nüfuz və mövqeyini yüksəldib. Artıq Azərbaycan ordusu 90-cı illərin ordusu deyil. Nizami və güclü Azərbaycan ordusu var. Müasir silahlarla təchiz olunmuş ordumuz var və 44 günlük döyüş meydanında öz sözünün deyən bir ordu. Dövlət başçısı bildirib ki, hələ müharibənin getdiyi dövrdə Mən göstəriş vermişdim ki, nömrələr yığılsın, saxlanılsın, gün gələcək biz bu nömrələri nümayiş etdirəcəyik. Həmin gün yetişdi. Cənab Prezident "Buraya gələn hər bir insan - Azərbaycan vətəndaşı, ölkəmizə gələcək qonaqlar bunu görəcəklər", deyərək bildirib ki, qoy ermənilər də görsünlər ki, onların bəd əməlləri cavabsız qalmadı: "Budur, onlara verilən cavab. Qarabağ Azərbaycandır!"

44 günlük Vətən müharibəsi dövründə döyüş meydanında davamlı məğlubiyyətlərə məruz qalan düşmən insanlıq əleyhinə və müharibə cinayətləri törətdi. Döyüş bölgəsindən uzaqda olan ərazilərə raket zərbələri endirərək, dinc sakinləri qətlə yetirdi. Sərgilənən eksponatlar həm də düşmənin törətdiyi müharibə cinayətlərini özündə əks etdirir. Həmin qənimətlər arasında düşmənin dinc əhalimizin yaşadığı əraziləri və gecə saatlarında yaşayış binalarını hədəfə alaraq ölkəmizə atdığı "İsgəndər-M" raketlərinin qalıqları var. "İsgəndər M" raketinin qalıqlarına baxan Prezident İlham Əliyev "Şuşanı bax, bu "İsgəndər-M" raketləri ilə ermənilər atəşə tutmuşdular", - deyərək bunun Ermənistanın hərbi cinayətinin sübutu olduğunu bildirib: "Bu ölümcül silah Ermənistanın əlinə necə düşdü? Hələ ki, cavab ala bilməmişik. Amma alacağıq. Hər kəs gəlsin, görsün, Şuşanı, bizim qədim şəhərimizi Ermənistan "İsgəndər-M" raketləri ilə məhv etməyə çalışırdı. Şuşanı biz azad edəndən sonra bundan istifadə etdilər".

## "BİZ DÜNYADA HEÇ VAXT OLMAYAN QƏLƏBƏNİ QAZANMIŞIQ"

Düşmən tərəfinin 30 il ərzində möhkəmləndirdiyi müdafiə xətləri yarıldı, onların hərbi resursları darmadağın edildi. Hərbi Qənimətlər Parkı Azərbaycanın əldə etdiyi tarixi Zəfərdə düşmənin məğlubluğunun nümayişi baxımından böyük əhəmiyyət malikdir. Azərbaycan tarixi qələbəni əldə etdi. Özü də 44 gün ərzində. Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin bildirdiyi kimi, İkinci Qarabağ müharibəsi də bizim gücümüzü göstərdi, müasirliyi göstərdi. Çünki biz XXI əsrin müharibəsini aparmışıq və bu gün artıq sirr deyil ki, dünyanın aparıcı hərbi məktəblərində İkinci Qarabağ müharibəsindəki əməliyyatlarımız, bizim uğurlarımız, Qələbəmiz öyrənilir: "Dünya mətbuatında artıq dəfələrlə məlumat verilmişdir ki, dünyanın aparıcı ölkələri, o cümlədən Amerika Birləşmiş Ştatları, Böyük Britaniya, Almaniya və inkişaf etmiş digər ölkələr İkinci Qarabağ müharibəsinin bütün aspektlərini öyrənirlər. Öz ordularını müasir standartlara, müasir tələblərə uyğunlaşdırmaq istəyirlər. Biz nəinki XXI əsrin müharibəsini nümayiş etdirmişik, biz dünyada heç vaxt olmayan Qələbəni qazanmışıq. Çətin relyef şəraitində düşmənin bir neçə istehkamının qarşısında biz peşəkarlıq, məharət, güc, hərbi elm qoyduq və istədiyimizə nail olduq, düşməni torpaqlarımızdan qovduq".



*Zümrüd BAYRAMOVA*

*EKSPERT RƏYLƏRİ*

# Gəncləri xaricdə təhsilə nə vadar edir?

Azərbaycandan təhsil və ya iş üçün xaricə gedən gənclərin sayı get-gedə çoxalır. Təbii ki, beyin köçü halının hər ölkə üçün müxtəlif səbəbləri var. Gəncləri təhsil üçün xaricə üz tutmağa nə vadar edir? Bu vəziyyət ölkəyə nə dərəcədə təsir edir?

Müasir dövrdə qloballaşma prosesi gənclərin təhsil seçimlərinə ciddi təsir göstərir. Azərbaycan gənclərinin də əhəmiyyətli bir hissəsi son illər xarici ölkələrdə təhsil almağa üstünlük verir. Təhsil Nazirliyinin 2025-ci ilə aid statistik məlumatlarına əsasən, hazırda 15 mindən çox azərbaycanlı tələbə müxtəlif ölkələrin ali təhsil müəssisələrində təhsil alır. Onların böyük hissəsi Türkiyə, Rusiya, Böyük Britaniya, Almaniya və İtaliya kimi ölkələrdə oxuyur.

Bu tendensiyanın yaranmasının bir neçə əsas səbəbi var. Əvvəla, gənclər xaricdə daha müasir, praktik yönümlü və beynəlxalq







standartlara uyğun təhsil sistemi ilə tanış olmaq istəyirlər. Bir çox xarici universitetlər tələbələrə yalnız nəzəri bilik deyil, həm də praktik bacarıqlar, təcrübə proqramları və geniş karyera imkanları təqdim edir.

Digər mühüm səbəb dil və beynəlxalq əlaqələr amilidir. Xaricdə təhsil alan gənclər yeni mədəniyyətlərlə tanış olur, bir neçə xarici dil öyrənir və beynəlxalq mühitdə ünsiyyət bacarıqlarını inkişaf etdirirlər. Bu isə gələcəkdə həm ölkə daxilində, həm də xaricdə iş tapmaqda onlara böyük üstünlük verir.

Sosioloqların fikrincə, gəncləri xaricdə təhsilə yönəldən amillərdən biri də yerli təhsil sistemindəki bəzi problemlərdir. Məsələn, bəzi ixtisaslarda tədris metodlarının köhnə qalması, praktik dərslərin azlığı və akademik azadlığın məhdudluğu gəncləri alternativ yollar axtarmağa vadar edir.

Bununla yanaşı, ailələrin də rolu danılmazdır. Son illərdə bir çox valideynlər övladlarının daha keyfiyyətli təhsil alması üçün xaricdə oxumağı investisiya kimi görürlər. Onlar hesab edirlər ki, xaricdə təhsil alan gənc daha geniş dünyagörüşünə malik olur və gələcəkdə ölkəyə dəyərli mütəxəssis kimi qayıda bilər.

Lakin ekspertlər bildirirlər ki, bu prosesin mənfi tərəfləri də var. Təəssüf ki, xaricdə təhsil alan gənclərin bir hissəsi geri dönmür və bu, "beyin axını" problemini yaradır. Bu səbəbdən dövlət son illər təqaüd proqramları və beynəlxalq əməkdaşlıqlar vasitəsilə xaricdə təhsil almış gəncləri ölkəyə cəlb etməyə çalışır.

Beləliklə , gəncləri xaricdə təhsilə vadar edən amillər çoxşaxəlidir: daha yaxşı təhsil şəraiti, beynəlxalq mühit, gələcək karyera imkanları və fərdi inkişaf istəyi. Əsas məsələ isə odur ki, gənclər harada təhsil alırlarsa alsınlar, qazandıqları bilik və təcrübəni öz ölkələrinin inkişafı naminə istifadə etsinlər.

Bu mövzuda Doktorant və Magistrlər Cəmiyyətinin sədri, fəlsəfə doktoru İlqar Orucov SİA-ya açıqlamasında bildirib:

"Müasir dövrdə qloballaşma və inteqrasiya proseslərinin sürətlənməsi gənclərin təhsil istiqamətində seçimlərinə də ciddi təsir göstərir. Bugünkü reallıq ondan ibarətdir ki, gənclərin xaricdə təhsil almaq istəyi ildən-ilə artır. Bu meylin arxasında duran əsas səbəb isə müasir, yüksək keyfiyyətli və beynəlxalq standartlara uyğun təhsil almaq arzusudur.

Heç kimə sirr deyil ki, Azərbaycanın təhsil sistemi son illərdə müəyyən inkişaf mərhələlərindən keçsə də, hələ də dünyanın nüfuzlu universitetlərindəki tədris səviyyəsinə tam şəkildə çatmayıb. Dövlət səviyyəsində təhsilə böyük diqqət və qayğı göstərilməsinə, siyasi iradə və geniş imkanların yaradılmasına baxmayaraq, ölkə daxilində ali təhsilin keyfiyyətinin qlobal rəqabət mühitinə tam cavab verməməsi gəncləri xarici universitetlərə yönəldir. Bu isə həm düşündürücü, həm də haqlı bir məsələdir.

Xaricdə təhsil alan gənclərin hamısı yüksək istedad sahibləri olmasa da, onların içərisində çox sayda savadlı, istedadlı və məqsədyönlü gənclər var. Bu gənclər Böyük Britaniya, Almaniya, Çin Xalq Respublikası, ABŞ və digər ölkələrin nüfuzlu universitetlərində təhsil alır və əsas məqsədləri mükəmməl bilik və peşə bacarıqları əldə etməkdir. Onların xaricdə təhsil almaq istəklərinin əsasında savadlı, bilikli, müasir əmək bazarının tələblərinə uyğun mütəxəssis olmaq arzusu dayanır.

Bununla yanaşı, bəzi gənclər təəssüf ki, daha az nüfuzlu universitetlərə üz tutaraq yalnız diplom əldə etməklə kifayətlənirlər. Bu isə biliyə əsaslanmayan formal təhsil anlayışını yaradır. Lakin əsl məqsədi keyfiyyətli təhsil almaq olan gənclərin xarici universitetlərdə təhsil alması sevindirici haldır, çünki bu, Azərbaycan gəncliyinin istedadlı və potensiallı olduğunu göstərir.

Ən mühüm məqam isə odur ki, xaricdə təhsil alan bir çox gənc yalnız orada yaşamaq üçün deyil, müasir bilik və bacarıqlara yiyələnərək vətənə qayıtmaq, ölkənin inkişafında fəal iştirak etmək məqsədi ilə bu yolu seçir. Bu gənclər gələcəyin ixtisaslı kadrları, intellektual potensial daşıyıcıları kimi Azərbaycanın inkişafında mühüm rol oynayacaqlar.

Bu baxımdan, artıq zaman yetişib ki, ölkəmizdə müasir universitet quruculuğu prosesi daha da sürətləndirilsin və təhsil sisteminin rəqabət qabiliyyəti artırılsın. Prezidentin təşəbbüsü ilə qəbul edilmiş dövlət proqramları bu istiqamətdə mühüm addımların atıldığını göstərir. Bu proqramlar çərçivəsində gənclərin də universitetlərin inkişafında, tədris mühitinin modernləşdirilməsində fəal iştirak etməsi nəzərdə tutulur.

Gənclərin xaricdə təhsil almaq meyli həm fərdi inkişaf, həm də ölkənin gələcək intellektual potensialının formalaşması baxımından müsbət haldır. Lakin bu prosesi balanslı şəkildə yönləndirmək, ölkə daxilində də eyni səviyyəli təhsil imkanları yaratmaq Azərbaycan təhsil siyasətinin qarşısında duran əsas vəzifələrdən biridir".

Gənclərin xaricdə təhsilə üstünlük verməsinin səbəbləri və milli təhsil sistemində islahatların zəruriliyi

Yeni Yazarlar və Sənətçilər İctimai Birliyinin sədri, yazıçı-kulturoloq Aydın Xan Əbilovon sözlərinə görə:

"Təhsillə bağlı nə qədər islahatlar aparılsa da, dəyişilməli xeyli nüanslar qalmaqdadır. Onlardan biri də Azərbaycan universitetlərinin nüfuzunun artırılması, beynəlxalq reytinqlərə daxil edilməsi və universitetlərimizin təkcə təhsil ocağı kimi deyil, eyni zamanda mədəniyyət mühiti formasında inkişaf etməsidir.

Dəfələrlə qeyd edildiyi kimi, Azərbaycanda təhsil sisteminə daxil olmaq mərhələsində deyil, əksinə dövlət imtahanı verərkən - yəni universiteti bitirərkən, imtahanların çətinləşdirilməsi daha məqsədəuyğun olardı. Təəssüf ki, bu proses bizdə tam əksinədir.

Hazırda gənclərimizin böyük bir qismi, xüsusilə oğlanlar, Azərbaycan universitetlərinə daxil ola bilmədikləri üçün, yəni qəbul imtahanlarının çətinliyi və lazımi bal toplaya bilməmələri səbəbilə yaxın qonşu ölkələrdəki universitetlərə üz tutur. Gürcüstan, Rusiya, Türkiyə, Şimali Kipr, Belarusiya və s. kimi ölkələrdə atestatla qəbul imkanı olduğu üçün, çoxları bu yoldan istifadə edir. Lakin onların hamısı səmimi şəkildə oxumaq məqsədi daşımır. Bəziləri təhsildən çox hərbi xidmətdən yayınmaq, yaxud valideynlərinin diplom arzularını yerinə yetirmək məqsədi ilə bu universitetlərə üz tuturlar.

Bu vəziyyət həm sosial, həm də iqtisadi baxımdan ciddi problemlər yaradır. Xaricdə təhsil adı altında milyardlarla kapital ölkədən axır. Əgər bir tələbənin orada 5-6 il yaşaması, qidalanması, sığorta haqqı, gediş-gəliş xərcləri nəzərə alınarsa, bu məbləğin ölkə iqtisadiyyatı üçün necə böyük itkiyə səbəb olduğu aydın görünür.

Bunun qarşısını almaq mümkündürmü? Tam şəkildə yox, çünki gənclərin bir hissəsi həqiqətən mükəmməl təhsil almaq məqsədilə, digərləri isə ölkədən çıxmaq, işləmək və yaşamaq məqsədilə xaricə üz tutur. Nəticədə Azərbaycan həm işçi qüvvəsini, həm də yeni potensial beyinlərini itirir. Ölkədə daha çox yaşlı nəsil, xəstələr və xaricə gedə bilməyənlər qalır.

Bəzi gənclər isə özünə güvənərək xaricə əmək, diplom və ya həyat qurmaq məqsədi-



lə gedir. Bu vəziyyətin qarşısını almaq üçün ilk növbədə ali məktəblərə qəbul sistemində kordinəl dəyişikliklər edilməlidir. Atestatla qəbul sistemi Azərbaycanda da tətbiq oluna bilər, lakin bununla yanaşı buraxılış imtahanları sərtləşdirilməli və keyfiyyət əsas götürülməlidir ki, ölkəyə həqiqətən savadlı və ixtisaslı kadrlar yetişdirilsin.

İkinci vacib məsələ isə bölgələrdə tələbə şəhərciklərinin və müasir təhsil mərkəzlərinin yaradılmasıdır. Sumqayıt, Naxçıvan, Gəncə, Lənkəran, Quba, Qazax kimi şəhərlər startap və innovasiya mərkəzləri kimi inkişaf etdirilməli, burada həm təhsil, həm yaşayış, həm də karyera imkanları yaradılmalıdır. Bu addım tələbələrin paytaxta axınının qarşısını alacaq və regionlarda iqtisadi-mədəni canlanma yaradacaq.

Bundan başqa, xarici nüfuzlu universitetlərin Azərbaycanda, xüsusilə Xankəndi, Ağdam, Şuşa kimi azad edilmiş bölgələrdə filiallarının və ya "Qarabağ Universiteti" kimi yeni ali məktəblərin yaradılması da zəruridir. Türkiyə və Şimali Kipr Respublikasının təcrübəsində bu model uğurla tətbiq olunmuşdur.

Bu gün xaricdə təhsil alan tələbələrimizin çoxu ölkəmizin qeyri-rəsmi səfirləri kimi çıxış edir. Onlar Azərbaycanın adını, mədəniyyətini və potensialını dünyaya tanıdırlar. Lakin gənclərin kütləvi şəkildə xaricə axını eyni zamanda nəzarətin itirilməsinə, bəzən də onların mənfi təsirlərə, hətta zərərli vərdişlərə məruz qalmasına gətirib çıxarır.

Xaricdə təhsilə üstünlük verilməsi ölkəmiz üçün həm fürsət, həm də problem xarakteri daşıyır. Bu prosesin nəzarətli və planlı şəkildə həyata keçirilməsi, milli təhsil sisteminin isə müasirləşdirilməsi olduqca vacibdir. Əks halda, "beyin axını" problemi daha da dərinləşəcək və gənclərimizin potensialı ölkədən kənarda reallaşacaq".

***Günay Hacıyeva***

# I qan qrupuna bənzəyən JURNALİSTİKA

***Jurnalistika I qan qrupuna çox bənzəyir. Necə ki, bu qan qrupu bütün qruplara qan verə bilir, yalnız öz qrupundan qan alır, jurnalistikada da belədir ki, jurnalist çox vaxt tək mətbuatda çalışa bilir, lakin digər ixtisas sahibi olan hər kəsə qapılarını taybatay açır.***

İstedadı, bacarığı olan insanlar təbii ki, mətbuatın yaraşığıdır. Buna heç kimin sözü ola bilməz. Və uzun illər boyu belə maarifçi, yenilikçi insanların mətbuatımıza verdiyi töhfələrin də şahidi olmuşuq. Lakin bacardı-bacarmadı, hər kəsin jurnalist olmaq istəməsi, media subyektlərində iş yerlərini zəbt etməsi, müasir dövrümüzdə isə artıq blogerlərin də jurnalist kimi müxbir olması, bəzi media orqanlarının onlardan açıqlama alması ya müasir dövrün bizə çatmayan tələblərindən söhbət açır, ya da mediamızda xeyli problemlərin olduğundan xəbər verir.

Birinci, ölkəmizdə bir neçə ali təhsil ocağında jurnalistika fakültələri fəaliyyət göstərir. Necə ki, jurnalist təsadüf nəticəsində başqa bir sahədə işləməli olursa, müəyyən vaxtdan sonra ondan ikinci təhsil tələb edilir, deməli, mətbuat sahəsində də əsas üstünlük jurnalist ixtisaslı kadrlara verilməlidir. Digər ixtisas sahibi olub, lakin jurnalist kimi fəaliyyət göstərənlər isə ya bu sahəyə yaxın ixtisaslı, ya da ikinci ixtisas təhsilli olmalıdır. Kim nə deyir, desin, buna ciddi yanaşmamağın səbəbdir ki, bu gün mətbuatda çoxsaylı problemlə üzləşirik.

## Yerindən qalxan jurnalist olanda...

Hansı səbəbdəndir, bilmirəm, çoxsaylı insan jurnalist olmaq istəyib zaman-zaman. Bu sahə kənardan asan bir iş yeri kimi görünür, hər kəs özünü yaradıcı və ya üzərinə düşəcək işin öhdəsindən gəlməyə hazır hesab edir, deyə bilmirəm, lakin uzun illər yerindən qalxan çox adam jurnalist olmaq məqsədilə üz tutub qəzet-jurnal, televiziya-radio redaksiyalarına. Müasir dövrümüzdə isə agentlik, sayt portalları da buna əlavə etsək və kiçik bir araşdırma aparsaq, bütün media subyektlərində qeyri-ixtisaslı kadrların jurnalistlərdən çox olduğunu görə bilərik. Sanki adamda belə bir təəssürat formalaşır ki, ölkədə jurnalist qıtlığı var. Bu sahədə ixtisaslı kadr az olduğundan ona görə vəziyyət belədir. Hansı ki, hər il ali təhsil ocaqlarından yüzlərlə jurnalist məzun olur.

Söz yox ki, bu yazını heç də hər kəs eyni şəkildə qəbul etməyəcək. Haqq qazandıranlar da olacaq, "doğru fikir yürütmürsən" deyənlər də olacaq, lakin yenə də vurğulamaq istəyirəm, sözünü mətbuatda deyənlərdən, özünü təsdiqləyənlərdən söhbət getmir. Söhbət mətbuata yamaq olanlardan, bu sahəyə bacarıqsızlığı ilə çoxsaylı problem gətirənlərdən gedir. Və elə onların fonunda da mətbuatımıza yenicə qədəm qoymada olan blogerlərdən, bir də bu qədər problemə yol açanlardan gedir.

Yəqin məlumatınız yox deyil ki, bəzi televiziyalar xəbəri müxbirlə yanaşı, artıq blogerlərdən də alır. Elə bəzi agentlik və saytlarda da blogerlərdən xəbər, məlumat alanlar var. Maraqlıdır, bu sahədə ali təhsil alan, bir neçə il iş təcrübəsi olan jurnalist bəzən məlumatı "Media haqqında" Qanun çərçivəsində verməyi bacarmır, hadisəyə yanaşmada səhvə yol verir. Bəs belə isə bəzən orta təhsili olmayan blogerdən hər hansı bir hadisə ilə bağlı məlumat almaq, fikrini deməsini istəmək nə dərəcədə düzgündür?.. Bəli, yerindən qalxan jurnalist olmaq istəyəndə...

## "Like"-"clikbait", "chatgpt" və "bloger" jurnalistikası meydana gəlir

150 yaşı olan mətbuatımız baxmayaraq ki, uzun bir yol keçib, özünəməxsus ənənələri var, lakin bu günə o ənənələrdən qalan çox azdır. Məsələn, müasir media əsasən xəbər və reportajdan ibarətdir. Hansı ki, janr mətbuatın geyimidir, biz isə illərdir onu soyundura-soyundura artıq çılpaq bir vəziyyətə salmışıq.









İndi sanki bütün media orqanları bir xəbər yarışına çıxıb: kim xəbəri birinci verəcək, onu necə təqdim edəcək, bundan necə bəhrələnəcək, mətndən xəbəri olmayan qondarma sərlövhəyə görə nə qədər insan onu "klik" edəcək, kimin "like"si daha artıq olacaq... Beləliklə, mediamızda ayrıca bir "like" jurnalistikası formalaşıb. Onlarla qəzet, televiziya və radio janrlarından xəbəri olmayan, sadəcə xəbər yazmaqla özünü jurnalist hesab edən bir jurnalistika. Hələ bu xəbərlərdəki ana dilinə tutulan sitəmdən danışmıram. Çünki bu, ayrıca, həm də günlərlə danışmaqla bitməyən bir mövzudur.

Süni intellekt meydana çıxdıqdan sonra isə mətbuatda jurnalistikanın yeni bir qolu yarandı: "chatgpt" jurnalistləri. Bunlar nə edir? Lazım olan məlumatı "chatgpt"yə göndərir, "chatgpt" isə onlar üçün xəbər yazır. Müəllif özü yazıbmış kimi agentlik, sayt və portal rəhbərlərini aldadır və özünü jurnalist hesab edir. Çox təəssüf ki, belə jurnalistlər arasında gənclər çoxluq təşkil edir. Onların əksəriyyəti ixtisaslı kadrdır, yəni aid ixtisas üzrə təhsil alan və ya digər peşələrin jurnalist kimi çalışanlarıdır. Xəbərin, hadisəyə münasibətin blogerdən alınmasına gəlincə isə, müasir dövrdə sanki olmayacaq nə isə qalmayıb. Deməli, bunu da görəcəkdik. Bəs bloger məlumat verməyə və hadisəyə münasibət göstərməyə nə qədər haqlıdır? Bax bunun cavabını onların "əməyindən" istifadə edənlər desin. Dünənədək hər hansı bir kafe-restoranını, geyim, ətriyyat mağazasının reklamını aparıb düzgün cümlə qura bilməyən, dünyagörüşü sadəcə bu sahələri insanlara tanıtmaq və təklif etmək çərçivəsinə sığan bloger xəbər verməyi, hadisəyə münasibət bildirməyi, mətbuata daxil olmağı necə bacarır? Hansı haqla, əsasla ondan fikir soruşulur, dediyi sözün məsuliyyəti, doğru-düzgünlüyü "Media haqqında" Qanuna, jurnalist etikasına sığırmı, bu tələblərə cavab verirmi, bax, maraqlı olan budur.

## Göz yumduğumuz kiçik problem böyüyüb boya-başa çatır

İstənilən-təhsil, səhiyyə, mədəniyyət və digər sahələrin hər hansı birində yaranan kiçik bir problemin qarşısı alınmayanda onun böyüyəcəyi şübhəsizdir: Bu gün məktəblərimizdə kişi-qadın müəllimlərin disbalansı, müəllim-şagird münasibətlərinin alt-üst olması kimi, USM müayinələrinin nəticəsi olaraq ölkədə oğlan uşaqlarının qızlardan dəfələrlə çox sayda doğulub gələcək üçün problem yaratması kimi, təhsil almadan ixtisaslı həkimtək fəaliyyət göstərənlər kimi... Bu kimi nümunələri çox sahədə çəkmək olar.

Zaman dəyişib, indi internet dövrüdür, yeni texnologiyalar bir-birinin ardınca həyatımıza daxil olur və bunun da sayəsində ətrafımızda hər şey dəyişir. Bunu anlayırıq hər birimiz. Lakin ənənələr var ki, onları qurban vermək olmaz. Hələ də ki, görə-görə göz yummaq, "əşi",- deyib keçmək, şübhəsiz, problemə çevriləcək və o problem böyüyüb boya-başa çatanda "biz nə etdik ki, bu günlərə qaldıq",- deyəcəyik.

Bax, müasir mətbuatımız bu gündədir. Qapılarını açıb bütün problemləri yuxarı başa keçirir. Göz yumuruq. Sanki "like" ardında olanları görmürük, "clikbait" sərlövhə qarşımıza çıxmır, xəbəri jurnalistin, yoxsa "chatgpt"nin yazdığının, blogeri jurnalist edənlərin fərqində deyilik. Hər birini çox yaxşı görür və bilirik. Sadəcə ya bu anormallığı normal kimi qəbul edirik, ya da "mən yox, qoy başqası buna reaksiya versin",- deyirik. Bunun adı isə göz yummaqdır. Baxın, qısa zaman kəsiyində "like"çılər, "clikbait"çilər, "chatgpt"çilər necə sürətlə mətbuatda yerləşə bildilərsə, göz yumsaq, blogerlər də belə sürətlə yerləşəcək. Sonra mətbuatın müasir dövründən nə və necə danışacağıq? Jurnalistika I qan qrupu funksiyasında ola bilər. Lakin bu funksiyanı bənzəri kimi həyata keçirsə, daha yaxşı olar. Qoy mətbuatımıza ən birinci heç olmasa 4 il jurnalistika təhsili alanları yerləşdirək, tək yerləşdirməklə kifayətlənməyək, onlara 150 ilin sirrini də aşılayaq. Aşılayaq ki, mətbu ənənələri yaşada bilək.

Bir sözlə, mətbuatımızı yuxarıda vurğuladığım "müasirlikdən" qoruyaq! Bunun üçün onun nəzarətə ehtiyacı var. Sizi bilmirəm, məncə düşünməyə dəyər...

***Mətanət Məmmədova***

## Regionda İlk Kadaver Transplantasiyasının İnkişafına fədakarlıqla töhfə verən həkimlər təşəkkürnamə ilə təltif olunublar




"Regionda İlk: Meyitdən Orqan Nəqli - Uğurlu Təcrübədən Gələcəyə Doğru" mövzusunda keçirilən Beynəlxalq Elmi Konfrans çərçivəsində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin rəisi, t.ü.f.d., Əməkdar həkim Ceyhun Məmmədov Səhiyyə Nazirliyinin Orqan Donorluğu və Transplantasiyası üzrə Koordinasiya Mərkəzi İdarə Heyətinin sədri, t.ü.f.d. Yeganə Abbasovanı, Mərkəzi Gömrük Hospitalının Orqan Transplantasiyası şöbəsinin transplantoloqu, t.ü.f.d., Səhiyyə Əlaçısı Mircəlal Kazımini, Mərkəzi Gömrük Hospitalının Orqan Transplantasiyası şöbəsinin transplantoloqu Dr.Kamran Beydullayevi və Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin Buynuz qişa transplantasiyası şöbəsinin oftalmoloqu Cəmil Həsənovu Azərbaycanda kadaver transplantasiyasının təşviqi sahəsində verdiyi töhfələrə və dəyərli xidmətlərinə görə təşəkkürnamə plaketi ilə təltif edib.



Təltif olunan həkimləri səmimi qəlbdən təbrik edir, onlara gələcək fəaliyyətlərində yeni nailiyyətlər və uğurlar arzulayırıq!





# İkiüzlü tolerantlıq

## Rusiya miqrantlara nifrət edərkən "rusofobiya"ya qarşı necə mübarizə aparır?

***Rusiyada miqrantlara qarşı artan neqativ münasibətin arxasında bir neçə sosial, iqtisadi və siyasi faktor dayanır. Həmçinin Kremlin bu məsələyə olan ikili münasibəti də dərin siyasi motivlərlə izah olunur. Miqrantlara qarşı neqativ münasibətin bir neçə səbəbi var. Birincisi, əmək bazarındakı rəqabətdir. Mərkəzi Asiya ölkələrindən (Tacikistan, Özbəkistan, Qırğızıstan) gələn miqrantlar çox vaxt aşağı maaşlı işlərdə çalışırlar. Bu, yerli rus işçiləri arasında ”maaşların aşağı düşməsi” və ”iş yerlərinin alınması” kimi qorxular, sosial gərginlik yaradır. İqtisadi çətinliklər (inflyasiya, işsizlik, sanksiyalar) artdıqca, insanlar problemlərinin səbəbini ”başqa” qruplarda, yəni miqrantlarda görməyə meyli olurlar.***




İkincisi, mədəni və etnik faktorlardır. Rus cəmiyyəti ənənəvi olaraq etnik homogenlik iddiasındadır. Mərkəzi Asiyadan gələn miqrantlar isə mədəni, dini və dil baxımından fərqlidirlər. Bu fərqliliklər, xüsusilə pravoslavlıq və rus milli kimliyi ilə bağlı məsələlərdə, ”yad” və ”təhlükə” hissini gücləndirir.

Üçüncüsü, cinayət və təhlükəsizlik diskursudur. Rusiya mediasında miqrantlarla bağlı xəbərlər çox vaxt cinayət hadisələri ilə əlaqələndirilir. Dövlət təbliğatı da zaman-zaman bu imici ”nəzarəti gücləndirmək”, ”daxili sabitliyi qorumaq” kimi arqumentlərlə gücləndirir.

Dördüncüsü, siyasi manipulyasiyadır. Hakimiyyət miqrant məsələsini ictimai diqqəti yayındırmaq üçün də istifadə edir. Məsələn, iqtisadi problemlər və ya müharibə ilə bağlı narazılıq artdıqda, Kremlin yönləndirdiyi media ”miqrant cinayətləri”, ”yad təsir” kimi mövzuları qabardır.

### Kremlin ikili yanaşması

Niyə xaricdə ruslara münasibət fərqli qiymətləndirilir? Miqrantlar mövzusu daxili siyasətdə sosial nəzarəti və millətçi hissləri idarə etmək üçün alət rolunu oynayır. Ruslara qarşı diskriminasiya məsələsi isə xarici siyasət üçün təzyiq və təbliğat vasitəsidir. Yəni, eyni hadisə daxildə ”ictimai təhlükə” kimi, amma xaricdə ”rusofobiya” və ”insan haqlarının pozulması” kimi təqdim olunur.

Kremlin rəsmi ideologiyası ”Rus dünyası (Russkiy mir)” konseptinə əsaslanır. Bu konseptə görə, ruslar (və rusdilli xalqlar) ”xüsusi sivilizasiya”nın daşıyıcılarıdır və onların hüquqlarının qorunması Kremlin ”missiyası”dır. Amma Mərkəzi Asiyalı miqrantlar bu konseptin içində ”daxili düşmən” kimi qəbul edilir - yəni Rus dünyasının parçası deyillər. Xaricdə ruslara qarşı ayrı-seçkilik barədə xəbərlər Kremlin ”Qərbin ikiüzlülüyü”nü göstərmək üçün ideal materialdır. Daxildə isə millətçi əhval-ruhiyyəni qorumaq və ”xarici təsirlərə qarşı birləşmək” üçün miqrant mövzusu istifadə olunur. Nəticə isə budur ki, miqrantlara qarşı münasibət Rusiya cəmiyyətində iqtisadi narazılıq, mədəni qorxu və siyasi manipulyasiyanın qarışığından doğur. Kreml isə bu ziddiyyətli hissləri məqsədyönlü şəkildə idarə edir. Yəni, daxildə nəzarət və ”düşmən obrazı” yaratmaq üçün, xaricdə isə ”rusofobiya” arqumenti ilə öz geopolitik mövqeyini möhkəmləndirmək üçün.

### Konkret nümunələr və siyasi kontekst

Bu, həm Kremlin daxili strategiyasını, həm də onun Mərkəzi Asiya və Qərblə münasibətlərindəki ikili standartları daha aydın göstərəcək. Rusiya rəhbərliyi, xüsusilə Moskva meri Sergey Sobyanin son illərdə ”miqrantlara qarşı sərt nəzarət” ritorikasını gücləndirib. Bu ritorikanın məqsədi isə paytaxt sakinlərinin ”təhlükəsizlik narahatlıqlarını” sakitləşdirmək, millətçi elektoratı qazanmaqdır.

Sobyanin 2024-cü ildə demişdi ki, ”Moskva miqrantlara arxalanmamalıdır. Biz rus işçiləri üçün imkanlar yaratmalıyıq”. Bu cür bəyanatlar çox populyardır, çünki cəmiyyətin hissiyatına uyğun gəlir. Əslində isə Moskva və ümumiyyətlə Rusiya iqtisadiyyatı miqrant işçilərsiz iflic vəziyyətə düşərdi. Tikinti, logistik, kommunal və xidmət sektoru işçilərinin 60-80%-i miqrantlardır. Rusiya demoqrafik böhran içindədir, gənc əhali azalır, yaşlılar artır. Bu səbəbdən miqrantlar iqtisadi sabitliyin faktiki dayağına çevrilib. Amma Kremlin siyasəti belə bir ikili oyun yaradır, ictimaiyyəti ”miqrant təhlükəsi” ilə qorxudur, eyni zamanda bu işçilərdən iqtisadi sistemin davamlılığını təmin etmək üçün istifadə edir.

Rusiya Mərkəzi Asiya dövlətlərini daim ”dost və müttəfiq ölkələr” kimi təqdim edir. Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı (KTMT), Avrasiya İqtisadi Birliyi (AİB) çərçivəsində sıx əməkdaşlıq var. Kreml tez-tez vurğulayır ki, biz post-sovet məkanında bir ailəyik, ortaq tariximiz və dəyərlərimiz var. Amma daxildə həmin ölkələrin vətəndaşları çox vaxt dərəcə-dərəcə diskriminasiyaya və zorakılığa məruz qalır. Hüquq-mühafizə orqanları miqrantlara qarşı ”reyd”lər keçirir, polis və məmurlar tərəfindən rüşvət, təhqir, zorakılıq hallarına geniş şəkildə rast gəlinir, bəzi şəhərlərdə miqrantlara kirayə ev verilməməsi və ya uşaqlarının məktəblərə qəbulunda çətinliklər müşahidə olunur.

Buna baxmayaraq, Kremlin rəsmi nümayəndələri bu halları ”lokal hadisə” kimi təqdim edir və məsuliyyəti yerli orqanların üzərinə atır. Yəni Kremlin Mərkəzi Asiya ölkələrinə ”müttəfiqlik” münasibəti daha çox siyasi asılılığı qorumaq, amma real bərabər münasibət yaratmamaq üzərində qurulub.



### Xaricdəki ruslar və Kremlin reaksiyası

Kreml rusların Latviyada, Estoniyada və Ukraynada dil hüquqları və ya siyasi təzyiqə məruz qalması məsələsini daim qabardır. Bu, həm xarici təbliğat üçün (”rusofobiya”nı göstərmək), həm də daxili auditoriyaya qarşı (”biz rusları hər yerdə qoruyuruq”) istifadə olunur. Amma eyni zamanda Rusiya daxilindəki miqrantlara və ya Qafqaz mənşəli vətəndaşlara qarşı zorakılıq halları zamanı Kreml ya susur, ya da məsuliyyəti ”ictimai emosiyalar”a bağlayır. Bu, Kremlin etnik selektiv yanaşmasının göstəricisidir, ”rus” kimliyi qorunmağa layiq sayılır, amma ”digər”lər yalnız faydalı olduqları qədər dözülür.

### Ukrayna konteksti

Ukrayna müharibəsindən sonra vəziyyət daha da mürəkkəbləşib, bir tərəfdən, mobilizasiya nəticəsində yerli işçi qüvvəsi azalıb. Bu, miqrantlara daha çox ehtiyac yaradır. Digər tərəfdən, millətçi ritorika və ”xarici təsirə qarşı mübarizə” adı altında miqrantlara qarşı nifrət artıb. Kreml bu paradoksu idarə olunan gərginlik kimi istifadə edir. Miqrantlarla bağlı narazılıqları kontrollu şəkildə buraxır, amma sistemin dağılmasına imkan vermir. Rusiya üçün miqrant mövzusu sadəcə sosial məsələ deyil, daxili sabitlik, milli kimlik və xarici siyasət arasında balans yaratmaq vasitəsidir. Kremlin ikili münasibətinin səbəbi budur ki, daxildə cəmiyyətin narazılığını yönəltmək üçün ”yadlara” qarşı sərtlik, xaricdə isə ”ruslara qarşı ayrı-seçkilik” beynəlxalq imic və təzyiq vasitəsi kimi. Bu mövzu həm siyasi, həm sosial, həm də ideoloji dərinliyə malikdir - yəni başlıq həm düşündürücü, həm də emosional olmalıdır. Aşağıda bir neçə fərqli üslubda təklif var, hansının tonuna üstünlük verdiyinə görə seçə bilərsən:

### Kremlin ”miqrant” və ”terrorçu” anlayışı

Rusiya hakimiyyəti ölkə hüdudlarından kənarda istənilən siyasi fəallığı tamamilə kriminallaşdırmaq üçün ilk addımı atıb. Müharibə Əleyhinə Komitəyə qarşı cinayət işi hər kəsə təsir edə bilər. Daxili İşlər Nazirliyi və ya İstintaq Komitəsi deyil, Federal Təhlükəsizlik Xidmətinin özü bu yolda səlahiyyətlərini genişləndirərək təşkilatın üzvlərinə qarşı dövlət çevrilişinə görə cinayət işi açıb. Onları Rusiyada dövlət çevrilişinə cəhddə günahkar elan edib.

Rusiya hakimiyyəti tərəfindən siyasi fəaliyyətin kriminallaşdırılmasının əvvəlki mərhələsi ötən il qətlə yetirilən müxalifət lideri Aleksey Navalnı ilə əlaqəli bütün təşkilatların ekstremist elan edilməsi olub. Bu, hətta o qədər uzağa gedir ki, eyni Korrupsiyaya Qarşı Mübarizə Fonduna uzaq keçmişdə göndərilən ianələr indi Rusiyada həbsdədir. Halbuki o zaman ən azı məhkəmə qərarı tələb olunurdu. Həmin qərar Rusiyada faktiki olaraq ”sistemsiz” müxalifət fəaliyyətini, yəni faktiki siyasi fəaliyyəti cinayət hesab edirdi.

Xaricdəki müxalifət üçün FTX-nin açdığı sadə cinayət işi kifayət edəcək. Bunu başa düşmək vacibdir ki, bu, təkcə Rusiya Müharibə Əleyhinə Komitəsinin özünə qarşı deyil. Onun bütün üzvləri uzun müddətdir ya xarici agent olub, Rusiyada başqa ittihamlarla axtarışa verilib, ya da arzuolunmaz təşkilatların əməkdaşları və rəhbərləri olub. Məsələn, Şahmat üzrə 13-cü Dünya Çempionu Harri Kasparov nə qədər absurd səslənsə də, Putin rejimi tərəfindən çoxdan ”ekstremist və terrorçu” hesab olunur, çünki onun ”Azad Rusiya” Forumu belə təşkilatların reyestrinə daxil edilib. Rusiyada dövlət çevrilişi etməyə cəhd edən daha 32 min ”cinayətkar” aşkar edilib.

***V.VƏLİYEV***

# Rəqəmsal asılılıq və ya texnologiyanın boğazımızdakı zənciri

***Sürətlə inkişaf edən texnologiya və texnoloji alətlərə sahib olmaq həvəsi həyatımızı asanlaşdırmaqla yanaşı, həm də sosial həyatımıza zərər verir. İndi ənənəvi üsullar yerinə virtual yollar köməyimizə yetir, elektron ticarət, elektron hökumət, elektron görüşlər vaxt baxımından bizə fayda verir. Amma həm də real ünsiyyət imkanımızı əlimizdən alır. Virtual platforma maddi-fiziki ehtiyaclarımızı asanlaşdırır, lakin mənəvi-psixoloji baxımdan fayda vermir, əksinə zərər verir. İnsan münasibətləri istiqamətini dəyişməyə başladı, real görüşlər minimuma endi, virtual görüşlər sürətlə artdı.***



Dünya sürətli sosial-iqtisadi dəyişiklik prosesini yaşadığı bir vaxtda elm və texnologiya da durmadan irəliləyir. Bu sürətli dəyişikliyin nəticələri bir çox aspektlərdə cəmiyyətlərə, sosial münasibətlər anlayışına təsir edir. Dəyişiklik çoxşaxəli təsirə malik olduğundan cəmiyyətin bir çox istiqamətində hiss olunur.

Üz-üzə ünsiyyətdən virtuala, kağızdan rəqəmsal sənədlərə, uzun müddət sərf edərək iş müraciəti etmək yerinə online müraciətlər kimi bir çox dəyişikliklər virtual dünyanın məhsuludur. Bəzisi faydalıdır, online konsultasiyalar, iş görüşləri və ya sənədləşmələr üçün. Bəsizi isə zərər verir, real ünsiyyəti unudub virtual münasibətlərə keçirik deyə. Virtuallaşmanın tarixi inkişafı, yəni internetin həyatımıza girdikdən bu günədək olan inkişafı, insanlığın məruz qaldığı mənəvi böhran da adlandırılır. Çünki həyatımız asanlaşdırdığı qədər sosial çevrəmizlə münasibətlərimizi virtuallaşdırmağa da o səbəb olur.






Rəqəmsal sistemə keçməzdən əvvəl ünsiyyət qurmaq üçün müəyyən vaxta ehtiyacımız var idi, əvvəl görüş təyin edirdik, sonra qarşılıqlı, real olaraq görüşür, söhbətləşir, çay içir, yemək yeyir, beləcə sosiallaşırdıq. Həyat normal axarında idi, tələsmirdik, qaçmırdıq, yorulmurduq. Lakin indi hər şeyi virtuallaşdırmışıq, ən doğmamızla belə internet vasitəsi ilə ünsiyyət saxlayırıq. İnternet bizə bir neçə saniyə ərzində dünyanın istənilən nöqtəsindəki tanışımızla ünsiyyət quramağımıza, mesajla, adi zənglə, görüntülü zənglə və s. üsullarla danışmağımıza imkan yaradır. Bu, əlbəttə, yaxşıdır. Amma qonşuluğumuzda yaşayan dostumuza, valideynimizə baş çəkmək yerinə video-zəng etmək də internetin "hədiyyəsidir".

Texnologiya o qədər sürətlə inkişaf edir ki, bəzən özümüz də onun sürətinə yetişə bilmirik. Doğrudur, sosial şəbəkələr həyatımıza olduqca rahatlıq gətirdi, həm fikrimizi çatdırmaq, həm yeni fikirlərlə tanış olmaq üçün əlverişli ünsiyyət vasitəsidir. İnsanlar sosiallaşma ehtiyaclarını və real həyatdakı ünsiyyətlərini rəqəmsal platformalara köçürdükdən sonra dostluq, qohumluq əlaqələri də müstəvi dəyişir. Real həyatdakı münasibətlərimiz indi bir-bir sosial platformalara keçir. Başqa sözlə desək, sosiallaşmaq da zamanla rəqəmsallaşdı.

XXI əsrdə texnologiyanin inanılmaz sürətli inkişafı bizə müsbət təsiri ilə yanaşı mənfi təsirini də nümayiş etdirdi. İnternet sayəsində tanınmış kitabxanaların elektron məhsullarını gözdən keçiririk, tapa bilmədiyimiz kitabların elektron versiyasını əldə edirik, uzaqda olan yaxınlarımızı canlı görə bilirik, yeni dostluqlar və münasibətlər əldə edə bilirik. Bütün bunlar müsbət xüsusiyyətlərdir, yaxşı bəs o zaman internetin bizə verdiyi mənfi tərəflər hansılardır?

Bir vaxtlar insanlar üzbəüz ünsiyyətdən zövq alırdılar, amma indi virtual ünsiyyət daha çox dəbdədir. Ofisdə bir-biri ilə ünsiyyət qurmağa "ərincəklik" edən iş yoldaşları birbirinə sözü olanda "facebook"dan mesaj yazırlar. Bir çox insan virtual məkanda hisslərini daha yaxşı ifadə etdiklərini deyirlər. Mütəxəssislər isə bunu ünsiyyət problemi ilə əlaqələndirirlər. Hətta bəzi sosioloqlar internet vasitəsi ilə ünsiyyət qurmanın fərdin real şəxsi ünsiyyət qurmasındakı ən böyük sədd olduğunu düşünürlər.

Pandemiya illərində təhsilin online sistemə keçirilməsi, iş yerlərinin bir çoxunun online olaraq fəaliyyət göstərməsi iş və təhsil məhsuldarlığını azaltdı. Xüsusilə virtual dərs alan abituriyentlərin imtahan göstəriciləri əvvəlki illərdə normal təhsil sistemi ilə dərs alan abuturiyentlərin nəticələri ilə müqayisə edildikdə itirdiklərimizin daha çox olduğunu müşahidə etdik. Özümüzü virusdan qoruduğumuz o qapanma müddətində sosial həyatımız, ünsiyyət bacarımız, təhsilimiz də deformasiyaya uğradı. Milli dəyərlərimizdən hesab etdiyimiz o böyük süfrələr, qonaqlıqaralı evlərin sayı azaldı, hər kəs əlindəki ekranın əsirinə çevrildi. Bizi özünün böyük, vahiməli toruna salan virtual dünya hər gün üzərimizdə bir az da çox hakimiyyət qurur.

***Lalə Mehralı***

# Günahkar analardır

***Son dövrlərdə insanlar çəki artımından, yəni kökəlməkdən əziyyət çəkir. Bu, əvvəllər nə üçün belə deyildi? İllər öncə insanlar niyə kütləvi şəkildə kökəlmirdi, lakin indi bu, artıq qlobal problemə çevrilib.***





Bunun müəyyən səbəbləri var. Məsələn, əvvəlki illərdə texnologiya inkişaf etməmişdi, insanlar daha çox özləri çalışırdı. Yəni paltar, qab-qaçağı maşınlar deyil, insan özü yuyurdu. Evi tozsoran deyil, insan özü süpürür, silir, təmizləyirdi. Hətta ətçəkən maşın da yox idi. Əti elektrik olmayan maşınlarda insanlar öz gücləri hesabına çəkir, sadaladığım hər bir işdə enerji sərf edirdi və bu da kökəlmənin qarşısını alırdı. İnternet yox idi, hər kəs evdən çox bayırda gün keçirirdi: gəzirdi, təmiz havada olurdu, oyunlar oynayırdı, kitab oxuyurdu.

Avtomobil də indiki qədər yox idi. Bu səbəbdən də insanlar piyada gəzmək kimi əlverişli imkandan istifadə edir, sağlam, həm də çəkisi yerində olurdu.

Bəs uşaqlar? Hansı ki, bu gün elə onların kökəlmə səbəbindən danışacağıq. Uşaqlar dərsdən sonra gün batanadək həyətdə o qədər oynayır, ora-bura qaçırdı ki, canları sağ, çəkiləri də yerində olurdu. Xüsusi rejimlə qurulan həyat onlara sağlamlığı töhfə edirdi. Valideyn indiki kimi onları məktəb çantasından əlavə yemək (bəslənmə) çantası ilə məktəbə göndərmirdi. Vur-tut uşağa 10-20 qəpik verərdi ki, bu da bir kökə, bir stəkan da çay edərdi.

Lakin indi necədir? İndi uşaqlar artıq həyət-bacada görünmür. Yeni texnologiyalar onları evə dustaq edib. Kompüter, smartfon telefonlar qarşısında onurğa sütunu əyilən, gözü zəifləyən uşaqlar gün ərzində bir saat belə hərəkət etmir, açıq havada olmurlar.

Səhər məktəbə gedəndə isə kaş ki, anaların onların məktəb çantasının yanına qoşduğu digər çantaya qoyduğu yeməkləri, kökələri görən ola. İş yerim məktəbə yaxındır, işə gəlib gedəndə də məktəbin qarşısından keçirəm. Anaların uşaqlarla söhbətini, onlara tapşırığını eşidirəm: filankəs, bax, çantana kökə bişirib qoymuşam, yanında o istədiyin yeməkdən də var. Meyvəni də yeməyi unutma... Və yaxud da uşağı məktəbdən götürən ananın "çantana qoyduqlarımı yemisən?",- soruşmasının, uşağın isə "yox" deyərkən, ananın ona hirslənib "mən, bilirsən, saat neçədən qalxıb onları sənin üçün bişirmişəm?" deməklə yemədiyi üçün onu ittiham etdiyini də görmüşəm.

Dəfələrlə ana və uşaqlar arasında bu mövzuda söhbətin, tapşırığın şahidi olmuşam. Və belə bir qənaətə gəlirəm ki, bu gün uşaqların çəki artımının səbəbkarı analardır. O uşaqlar ki, bu çəki ilə də məktəbi bitirir və gənclik çağında artıq həm görünüşündən, həm də sağlamlıq cəhətdən əziyyət çəkir.

Deməli, bütün bunlar üçün analar günahkardır. Uşaqların həm evdən bayıra çıxmamasının, həm çox yeməyinin, həm də rejimdənkənar həyat tərzi keçirməsinin hər biri anaların səhlənkarlığı, uşağını "çox istəməsi" ilə bağlıdır. Lakin əslində bu, dərkedilməyən istəkdir. Dərk edilən şəkildə olsa, analar anlayar ki, birinci, uşaqların əlindən kompüter və telefon alınmalı, onlar bu kimi vasitələrdən müəyyən saat, dəqiqə ərzində istifadə etməlidir.

Ana anlamalıdır ki, uşaqlar nə qədər ki, evdə çox zaman keçirir, təmiz havaya çıxmır, oyunlar oynamır, bir o qədər sağlamlığını itirir, çəki alırlar. Onlar ən birinci əziyyət çəkib vaxt ayırıb onların küçəyə çıxmasını təmin etməlidir. Necə deyərlər, uşaqlar seriallara qurban verilməməlidir. İkincisi isə uşağa məktəbdə yeməsi üçün bir o qədər yemək qoymaq düzgün deyil. Çünki bu, onun rejimsiz bir həyat yaşamasına, harada, nə vaxt gəldi, yeməsinə səbəb olur. Odur ki, bunlara diqqət edilməli, uşağın sağlamlığı ön plana keçməlidir.

Belə bir nəticəyə gəlirəm ki, bu gün uşaq, yeniyetmə və gənclərin çəki probleminin təməli məktəblərdə qoyulur və bunun üçün günahkar analardır.

Unutmayaq ki, insan çox yeməklə deyil, az yeyib çox vitamin qəbul etməklə, bir də çox hərəkətlə sağlam ola bilər. Bunu əməli-başlı dərk edək ki, uşaqların gələcək kompleksinə çevriləcək çəki artımına şərait yaratmayaq.

***Mətanət Məmmədova***

# Ukrayna-Rusiya: sülhdən çox uzaq

## *Zelenski: Sülh yolunda ən çətin ərazi məsələsidir*

***Rusiya-ABŞ dialoqunun dayandığı, Amerika rəsmilərinin Rusiyaya qarşı tənqidi bəyanatlar verərək yeni sanksiyalar planlaşdırdığı bir vaxtda, Ukrayna və Avropa dərhal atəşkəslə bağlı məlum təklifi əsasında Rusiya ilə münaqişəyə son qoymaq üçün öz planlarını hazırlayır. Kiyev və onun müttəfiqlərinin fəallığının artması onların ABŞ administrasiyası ilə yaxınlaşması sayəsində mümkün olub. ABŞ və onun müttəfiqləri tərəfindən Moskvaya artan təzyiq Kiyevə Ukraynaya Amerikanın uzaqmənzilli raketlərinin tədarükü məsələsini bir daha gündəmə gətirməyə və prezident Trampı Rusiya ilə yalnız sanksiyaların eskalasiyası və sərtləşdirilməsi yolu ilə əlaqə saxlamağa çağırmağa imkan verib.***

Ukrayna prezidenti Vladimir Zelenski uzun mənzilli "Tomaqavk" qanadlı raketlərinin tədarükünü müzakirə etməyəcəyini, çünki "ABŞ eskalasiyanı istəmir" deyib. O, bunu cümə günü, oktyabrın 17-də Vaşinqtonda ABŞ prezidenti Donald Trampla görüşündən sonra jurnalistlərə deyib. "Biz bunu müzakirə etməməyə razılaşdıq. Birləşmiş Ştatlar eskalasiya istəmir, bununla belə, Ukrayna bu raketləri almaq istəyir", - Zelenski bildirib. Ukrayna prezidentindən Tomaqavk tədarükü ilə bağlı optimist və ya pessimist olduğunu soruşduqda, o, "realist" olduğunu bildirib. Zelenski həmçinin əlavə edib ki, o, Trampla Rusiyadakı enerji obyektlərinə zərbələr endirməyi müzakirə etməyib. Bununla belə, təhlükəsizlik təminatları müzakirə mövzularından biri olub: "Ölkəmiz qorxur ki, atəşkəsə nail olsaq belə, Putinin aqressivliklə geri dönməsinin qarşısını almaq üçün yenə də ABŞ-ın təhlükəsizlik zəmanətinə ehtiyacımız olacaq".

Zelenski ərazi məsələsini Rusiya ilə müharibədə ən çətin məsələ adlandırıb: "Ruslar həqiqətən də bütün ərazini işğal etmək istərdilər. Lakin atəşkəsdən əvvəl ərazilər və digər aspektlər üzrə bəzi razılaşmalar əldə edilməlidir. Məncə, ilk addımı atmaq vacibdir - atəşkəs". Trampla görüşündən sonra və jurnalistlərlə danışmazdan əvvəl Zelenski Avropa liderləri ilə qrup telefon danışığı aparıb. İştirak edənlər arasında Avropa Komissiyasının sədri Ursula fon der Leyen, Almaniya kansleri Fridrix Merz, Finlandiya prezidenti Aleksandr Stubb, həmçinin Böyük Britaniya, İtaliya, Norveç və Polşanın baş nazirləri, NATO-nun baş katibi Mark Rutte də var. "ABŞ prezidenti Donald Trampla iki saatdan çox davam edən əsaslı müzakirə, həqiqətən də bu müharibəni sona çatdıra bilər", - Ukrayna lideri daha sonra Ağ Evdən fotoları dərc edərək Telegram kanalında yazıb: "Biz bütün əsas məsələləri müzakirə etdik: döyüş meydanındakı mövqelərimiz, atəş güclərimizin və hava hücumundan müdafiə sistemlərimizin diapazonu və təbii ki, diplomatik perspektivlər. Rusiya başladığı və bilərəkdən uzatdığı təcavüzə son qoymalıdır. Biz ABŞ-ın təzyiqinə ümid edirik".

ABŞ prezidenti də Ukrayna prezidenti Vladimir Zelenski ilə görüşün çox maraqlı və mehriban keçdiyini deyib. "lakin mən ona dedim ki, prezident Putinə qəti şəkildə tövsiyə etdiyim kimi, qətli dayandırmağın və razılaşmanın vaxtıdır!", Donald Tramp bildirib. ABŞ prezidentinin sözlərinə görə, tərəflər olduqları yerdə dayanmalıdırlar: "Qoy hər ikisi qələbəni elan etsin, tarix qərar versin! Artıq atışma, ölüm, böyük və dayanıqsız xərclər olmasın", - o əlavə edib. Jurnalistlər Donald Trampın şərhindən xəbərdar olan Vladimir Zelenski Amerika liderinin mövqeyi ilə razılaşıb. "Biz indi olduğumuz yerdə dayanmalıyıq. Tramp haqlıdır. Ondan sonra uzunmüddətli sülhə doğru addımların necə atılacağı barədə danışmağa başlayın", - Ukrayna prezidenti bildirib.

Qapalı görüşdən əvvəl Tramp qeyd edib ki, Rusiyanın dərinliklərində zərbələri müzakirə edəcəyik: "Bəli, bu, müzakirə edəcəyimiz bir şeydir. Bu, eskalasiyadır, lakin biz bunu müzakirə edəcəyik". Tramp həmçinin ümid etdiyini bildirib ki, Ukraynadakı müharibə "Tomaqavk" raketlərindən istifadə etmədən də başa çatdırıla bilər. Amerika prezidentinin sözlərinə görə, o hesab edir ki, həm Rusiya prezidenti Vladimir Putin, həm də Zelenski müharibənin bitməsini istəyir. "İndi biz bunu reallaşdırmalıyıq" dedi ABŞ prezidenti. O, Ukraynanın sülh sazişi imzalamaq üçün ərazilərini verməli olub-olmayacağı sualına birbaşa cavab verməyib və müharibələrin gözlənilməz olduğunu bildirib.





### Ukraynadan Trampa təqdimat

Ukrayna nümayəndə heyəti, daha əvvəl "Reuters" agentliyinin Ukrayna nümayəndə heyətindəki mənbəyə istinadən xəbər verdiyi kimi, ABŞ-ın tədarük etməyə razı olduğu halda Kiyevin "Tomaqavk" raketlərindən necə istifadə edə biləcəyi barədə Donald Tramp üçün təqdimat hazırlayıb. Bundan əlavə, təqdimatda bu raketlərin müharibəyə necə təsir göstərə biləcəyinə dair nəticələr də daxil edilib. Ağ Evdə Trampla görüşünün ictimai hissəsində Zelenski ABŞ-a Ukrayna pilotsuz təyyarələrini Tomahawks ilə dəyişməyi təklif edib. O, Kiyevin "Tomaqavk" qanadlı raketləri müqabilində ABŞ-a minlərlə Ukrayna pilotsuz təyyarəsi verməyə hazır olduğunu bildirib və "müasir müharibənin çoxlu sayda PUA tələb olunduğunu" vurğulayıb. Donald Tramp da öz növbəsində Ukrayna təyyarəsini "çox yaxşı" adlandırıb. O, həmçinin əlavə edib ki, ABŞ-ın özünün Kiyevə göndərilməsinə Tomaqavklar və digər raketlər lazımdır, lakin Zelenskinin təklifini müzakirə etməyə hazır olduğunu bildirib. Ukrayna prezidenti həmçinin bəyan edib ki, Trampın Ukrayna münaqişəsinə son qoymaq üçün "böyük fürsəti" var, keçmiş prezident Co Bayden isə yox. "Rusiya-Ukrayna müharibəsi mənim həll etdiyim doqquzuncu münaqişə olacaq. Mən müharibələri dayandırmağı sevirəm; biz milyonlarla insanın həyatını xilas etdik", - Donald Tramp söz verib.

Zelenski ABŞ-a Ukrayna pilotsuz təyyarələrini Tomahawks ilə dəyişməyi təklif edib. O, Kiyevin "Tomaqavk" qanadlı raketləri müqabilində ABŞ-a minlərlə Ukrayna pilotsuz təyyarəsi verməyə hazır olduğunu bildirib və "müasir müharibənin çoxlu sayda İHA tələb olunduğunu" vurğulayıb. Donald Tramp da öz növbəsində Ukrayna pilotsuz təyyarələrini "çox yaxşı" adlandırıb. O, həmçinin əlavə edib ki, ABŞ-ın Kiyevə göndərilməsi üçün "Tomaqavklar" və digər raketlərə ehtiyacı var, lakin Zelenskinin təklifini müzakirə etməyə hazır olduğunu bildirib.

Daha əvvəl Bloomberg mənbələrə istinadən xəbər vermişdi ki, Ukrayna ABŞ-a pilotsuz uçuş aparatları sektorunda texnoloji tərəfdaşlıq, o cümlədən Ukrayna pilotsuz təyyarələrinin ABŞ ordusuna sonradan ixracı üçün ABŞ və ya Avropada istehsalını təklif edəcək. Vladimir Zelenski həmçinin bildirib ki, Trampın Ukrayna münaqişəsinə son qoymaq üçün "böyük imkanları" var, keçmiş prezident Co Bayden isə yox. "Rusiya və Ukrayna arasındakı müharibə mənim həll edəcəyim doqquzuncu münaqişə olacaq. Mən müharibələri dayandırmağı xoşlayıram; biz milyonlarla insanın həyatını xilas etdik", - Donald Tramp söz verib. ABŞ-ın birinci xanımı "çox narahatdır".

### Ukraynaya Sülh Planı lazımdır

Almaniya kansleri Fridrix Merz bəyan edib ki, Ukraynanın indi sülh planına ehtiyacı var. Siyasətçi bunu Ukrayna prezidentinin ABŞ prezidenti Donald Trampla görüşündən, özünün isə Vladimir Zelenski başda olmaqla digər Avropa liderləri ilə qrup telefon danışığından sonra bildirib. Söhbət zamanı Avropa liderləri, o cümlədən Merz "Rusiyanı ciddi danışıqlara sövq etmək" üçün Ukraynaya dəstəyi artıracaqlarını vəd ediblər", - Almaniya hökumətinin sözçüsü Stefan Kornelius bildirib. Konkret olaraq, onlar sanksiyalar və dondurulmuş Rusiya dövlətinin aktivlərindən istifadə etməklə Moskvaya təzyiqi artırmağı planlaşdırırlar.

Kornelius Merzdən sitat gətirib: "Volodimir Zelenski Almaniyanın və Avropalı dostlarımızın onun sülh yolunda tam dəstəyinə malikdir. Qeyd olunur ki, Trampla görüşdən sonra Avropa liderləri Zelenski ilə gələcək fəaliyyətləri və niyyətləri müzakirə ediblər. Bundan sonra növbəti addımları diqqətlə izləyin. Bu, müasir dünyanın ən çətin və emosional yüklü suallarından biridir - həm siyasi, həm hüquqi, həm də mənəvi baxımdan "ədalətli həll" anlayışı müxtəlif tərəflər üçün tam fərqli mənalar daşıyır. Amma obyektiv, realist və beynəlxalq hüquqa əsaslanan yanaşma ilə baxsaq, ədalətli həll üçün bir neçə əsas prinsip və mərhələ tələb olunur.

### Ədalətin əsas prinsipi: beynəlxalq hüququn bərpası

Rusiya ilə Ukrayna arasında müharibənin ədalətli həllin təməli BMT Nizamnaməsinə və dövlətlərin ərazi bütövlüyünə hörmət prinsiplərinə əsaslanmalıdır. Bu baxımdan, Ukraynanın suverenliyi və beynəlxalq səviyyədə tanınmış sərhədləri (1991-ci il sərhədləri) bərpa edilməlidir. Rusiya tərəfindən işğal edilmiş ərazilər (Donetsk, Luqansk, Zaporojye, Xerson və xüsusilə Krım) məsələsi beynəlxalq hüquq çərçivəsində həll edilməlidir. Əks halda, "güclünün haqqı" prinsipi qalıcı olacaq. Bu isə gələcəkdə oxşar müharibələrin əsasını qoyar.

Tam "qalib-məğlub" modeli bu müharibədə uzunmüddətli sülh gətirməyəcək. Realist baxımdan mərhələli sülh prosesi mümkündür. Birinci mərhələ, atəşkəs və danışıqlardır. BMT və ya neytral vasitəçilərin (məsələn, Türkiyə, İsveçrə və ya Çin) nəzarəti altında sabit atəşkəs elan edilir. Humanitar dəhlizlər açılır, əsirlərin mübadiləsi və mülki əhalinin təhlükəsizliyi təmin olunur. İkinci mərhələdə ərazilərin statusu üzrə müzakirələr aparılır. Donbass və Krım məsələsi beynəlxalq mexanizmlərlə (BMT nəzarəti altında referendum, uzunmüddətli xüsusi status, və ya beynəlxalq idarəetmə) müzakirə edilə bilər. Bu mərhələdə xalqın iradəsi ilə beynəlxalq hüququn tələbləri arasında balans tapmaq əsas məqsəd olmalıdır. Üçüncü mərhələ isə təhlükəsizlik zəmanətləridir. Ukrayna üçün beynəlxalq təhlükəsizlik zəmanətləri (məsələn, "Ukrayna üçün yeni Budapeşt formatı") qəbul edilməlidir. Rusiya isə öz sərhədləri daxilində təhlükəsizliyinin qorunduğuna dair beynəlxalq təminat almalıdır. Bu, qarşılıqlı etimad yaratmaq üçün vacibdir. Dördüncü mərhələ kompensasiya və ədalətdir. Müharibə nəticəsində zərər çəkmiş Ukrayna infrastrukturunun bərpası üçün Rusiya tərəfindən təzminat mexanizmi yaradılmalıdır. Müharibə cinayətlərinə görə məsuliyyət həm rus, həm ukraynalı tərəfdən şəffaf araşdırılmalıdır.

Tam ədalət, yəni bütün günahkarların cəzalandırılması, bütün ərazilərin dərhal qaytarılması praktiki olaraq qısa müddətdə mümkün deyil. Amma tam barışıq da, yəni "keçmişi unudaq", mənəvi baxımdan qeyri-mümkündür. Bu səbəbdən, keçid ədaləti modelinə bənzər bir yanaşma lazımdır. Yəni, gerçəklərin araşdırılması (müstəqil komissiyalar), qurbanların tanınması və kompensasiyası, cəza və bağışlanma arasında balans.

Rusiya daxilində siyasi transformasiya olmadan ədalətli sülh çətin görünür. Ədalətli sülh təkcə Ukrayna ilə danışıqlardan yox, həm də Rusiyanın daxili dəyişikliklərindən asılıdır. Əgər Kremlin siyasi kursu dəyişməz qalarsa, hər hansı "sülh" sadəcə müvəqqəti dondurma effekti yaradacaq.

**V.VƏLİYEV**

# “Azərbaycan təkcə torpaqları deyil, həm də o torpaqlarda insan həyatını bərpa edir”

“Oktyabrın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Sabirabad, İmişli, Cəbrayıl və Zəngilan üzrə gerçəkləşən səfər çərçivəsində bir sıra açılışlarda, təməlqoyma mərasimlərində iştirak etdi, görülmüş işlərlə tanış oldu və sakinlərlə görüşdü. Bu səfər təkcə obyektlərin istifadəyə verilməsi, infrastrukturun möhkəmləndirilməsi deyil, həm də bölgələrin sosial-iqtisadi inkişafının təşviqi, kənd təsərrüfatı və sənaye potensialının artırılması və vətəndaşla dövlət arasında bilavasitə ünsiyyətin gücləndirilməsi baxımından əhəmiyyət kəsb edir”. Bu sözləri SİA-ya açıqlamasında YAP Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev deyib. O bildirib ki, ilk olaraq Sabirabadda səfər zamanı regionun sənaye, kənd təsərrüfatı və emal sahəsinə yönəlmiş layihələrlə tanışlıqla başlandı: ”Prezident İlham Əliyev Sabirabad Sənaye Məhəlləsində yerləşən bir sıra müəssisələr - məsələn, ”Azera Toxumçuluq MMC” toxum istehsalı müəssisəsi ilə tanış olmuşdur. Bu müəssisə Türkiyənin qabaqcıl texnologiyalarının tətbiqi ilə çalışır, ildə 500 ton yonca, 800 ton hibrid qarğıdalı, 350 ton hibrid günəbaxan, 2 000 ton arpa və 2 000 ton buğda toxumu istehsalı gücünə malikdir. Sonrakı dayanacaq ”Fırtına Su Sistemləri MMC” idi - su filtrlərinin istehsalı müəssisəsində Çin texnologiyası əsasında ildə 210 000 ədəd filtr və 15 000 ədəd su filtri cihazı istehsalı planlaşdırılır; müəssisə həm daxili bazarı təmin edir, həm də Qazaxıstan, Özbəkistan və Türkiyəyə ixracını nəzərdə tutur. Burada 50 iş yeri yaradılmışdır. Bundan əlavə, Sabirabadda ”Taşobası MMC” pambıq emalı zavodu ilə tanışlıq olmuşdur. Layihə dəyəri təxminən 3,3 milyon manat olan bu zavod ildə 8 000 ton mahlıc və 10 000 ton texniki çiyid istehsalı gücünə malikdir. Xammal kimi Neftçala, Salyan, Sabirabad və Saatlı rayonlarında yetişdirilən pambıqdan istifadə edilir. Zavodda 80 daimi iş yeri və sezona bağlı olaraq 300 nəfər mövsümi iş yeri yaradılmışdır. Bu layihələr regionun sənaye əsaslarını möhkəmləndirməklə yanaşı, kənd təsərrüfatı ilə əlaqəli emal zonası yaratmaq və yerli əhalinin məşğulluğunu artırmaq məqsədi daşıyır.

İmişli rayonuna edilən səfər çərçivəsində Prezident İlham Əliyev ”Promalt MMC” arpa emalı müəssisəsinin açılışında iştirak etmişdir. Bu açılış kənd təsərrüfatının emal səviyyəsinin yüksəldilməsi, ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsi və yerli fermer təsərrüfatlarının gəlirliliyinin artırılması istiqamətində atılan mühüm addımdır. Belə layihələr həm əhalinin rifahını gücləndirəcək, həm də regionun iqtisadi profilini zənginləşdirəcək.

Cəbrayıl rayonunda isə səfər çoxşaxəli infrastruktur və sakinlərin məskunlaşması layihələrini əhatə etdi. Prezident İlham Əliyev ilk olaraq Horovlu kəndində birinci mərhələnin açılışında iştirak etmiş, sakinlərə mənzillərin açarları təqdim edilmişdir. Daha sonra Cəbrayıl şəhərində ikinci və üçüncü yaşayış komplekslərinin təməli qoyulmuşdur. Dövlət başçısı həmçinin şəhər məscidinin təməlqoyma mərasimində iştirak etmişdir. Avtomobil yolu vasitəsi ilə ”Şəfəq Günəş Elektrik Stansiyası”na bağlantını təmin edən yolun açılışında iştirak etmişdir. Daha bir mühüm addım isə Cəbrayıl rayonunun Şahvəlli kəndində yerləşən ”Şəms Günəş Elektrik Stansiyası” və ”Üfüq Günəş Elektrik Stansiyası”nın təməlqoyma mərasimidir. Bu layihələr yenidənqurma, bərpa və yaşamaq üçün tələb olunan infrastrukturun formalaşması istiqamətində atılan ciddi addımlardır.

Zəngilan isə səfərin son dayanacağı oldu. Prezident İlham Əliyev Ağalı kəndinin ikinci mərhələsinin və Məmmədbəyli kəndinin açılışında iştirak etdi. Ağalı kəndində 103 yaşayış vahidi-55 ikiotaqlı fərdi ev, 3-cü mərtəbəli iki bloklu ”townhouse” tipli binalarda mənzillər, 36 birotaqlı və 12 ikiotaqlı mənzillər inşa edilmişdir. Kənddə bütün evlərə kommunikasiyalar çəkilmiş, qazla təmin edilmiş, evlərdə kombilər quraşdırılmışdır. Həmçinin iki hektardan çox sahədə park



salınmış, uşaq, idman və əyləncə zonaları yaradılmışdır. Məmmədbəyli kəndində isə 51,6 hektar sahədə 188 fərdi ev inşa edilmişdir - 39-u iki, 55-i üç, 55-i dörd və 39-u beşotaqlıdır. Hər bir evin həyətyanı sahəsi olmuş, evlərdə günəş panelləri quraşdırılmış, su, işıq, qaz və yüksək sürətli internet şəbəkəsi ilə təmin edilmişdir. Kənddə iki çoxfunksiyalı qeyri-yaşayış bina inşa edilmişdir; kəndin yolları asfaltlanmışdır. Kəndləri birləşdirən keçid inşa edilmiş, Ağalı-Məmmədbəyli yol infrastrukturu, məktəb (360 şagird yerlik), 60 yerlik uşaq bağçası, ailə sağlamlıq mərkəzi, məişət xidmətləri mərkəzi, aptek və bazar kompleksi fəaliyyət göstərəcəkdir. Ardınca Prezident Zəngilan şəhərində 104 mənzilli yaşayış kompleksində görülmüş işlərlə tanış olmuşdur. Kompleks 12 blokdan ibarətdir - 8 ikimərtəbəli, 4 üçmərtəbəli bina - ümumi sahəsi 2 hektara yaxın olan ərazidə yerləşir. Kompleksdə uşaq və idman meydançaları, 6 yerüstü və yeraltı avtomobil dayanacağı, elektromobillər üçün enerjidoldurma məntəqəsi, yeraltı su anbarları və transformator quraşdırılmışdır. Ərazidə yerləşməsi məktəb, bağça və parkın yaxınlığında olaraq, ”çoxfunksiyalı zona” prinsipi nəzərə alınmışdır. Bu səfər bölgədə sakinlərin rahat, müasir və təhlükəsiz yaşama şəraitinə malik olması istiqamətində konkret addımların atılması baxımından simvolik olan çoxsaylı mesajları özündə ehtiva edir.

Səfər zamanı Prezident İlham Əliyev həm institutional, həm emal-sənaye, həm infrastruktur yönümlü layihələrin bir-birinin ardınca işlənməsi əsasında bölgələrin sosial-iqtisadi səviyyəsinin qaldırılması strategiyasının həyata keçirildiyini vurğuladı. Sakinlərlə görüşlər zamanı dövlətin vətəndaşlara olan diqqəti və regionların inkişafına olan dərin marağı açıq-aydın hiss olunurdu.

Prezident İlham Əliyevin Cəbrayıl və Zəngilandayerli sakinlərlə görüşünü haqqında onu qeyd etmək olar ki, bu Böyük Qayıdış proqramının canlı təcəssümü kimi mühüm ictimai-siyasi proses idi. Dövlət başçısının sakinlərlə səmimi ünsiyyəti, onların qayğı və arzularına diqqətlə yanaşması, yeni mənzillərin açarlarının sakinlərə təqdim edilməsi ölkə rəhbərliyinin vətəndaş rifahını prioritet kimi müəyyən etdiyini bir daha göstərdi. Bu görüşlərdə Prezident İlham Əliyevinvurğuladığı əsas fikir ondan ibarət idi ki, azad edilmiş torpaqlarda həyatın bərpası təkcə infrastruktur layihələri deyil, həm də sosial ədalətin bərpası, doğma yurda dönüşün icrasıdır. Cəbrayıl və Zəngilanda həyata keçirilən quruculuq işləri dövlətin planlı, məqsədyönlü siyasətinin nəticəsi olaraq sürətlə inkişaf edir. Sakinlərin Prezident İlham Əliyevə minnətdarlığı xalqın bu siyasətə dərin etimadını və dövlət-xalq birliyinin möhkəmliyini əks etdirdi. Bu, həm də Azərbaycanın postmühəribə dövründə öz modelini - ədalətli bərpa və dayanıqlı inkişaf modelini formalaşdırdığını sübut edir. Cəbrayıl və Zəngilanda Prezident İlham Əliyevlə sakinlər arasında baş tutangörüşlər və səmimi dialoq, əslində, Böyük Qayıdışın mənəvi və sosial əsaslarını daha da möhkəmləndirdi.

Bu səfər bir daha göstərdi ki, Azərbaycan dövləti təkcə torpaqları deyil, həm də o torpaqlarda insan həyatını, ümidini və gələcəyini bərpa edir.

Ümumilikdə, səfərdən regionların sənaye potensialının, kənd təsərrüfatı emal gücünün artırılması. məskunlaşma layihələrinin intensivləşdirilməsi, kənddən şəhərə miqrasiya axınının qarşısının alınması, yerlərdə yaşamağın stimullaşdırılması, infrastrukturun-yol, avtomobil dayanacaqları, park, bağça, məktəb, xidmət mərkəzləri-formalaşdırılması, ekoloji və alternativ enerji komponentlərinin (günəş panelləri, elektromobil enerjidoldurma məntəqələri) layihələrə daxil edilməsi, dövlət ilə vətəndaşlar arasında birbaşa dialoqun və əlaqənin gücləndirilməsi kimi məqamlar xüsusilə önə çıxdı. Bu məqamlar yalnız bir günün fəaliyyətləri deyil, gələcək illər üçün sabit və planlı inkişafın göstəricisidir. Qeyd etmək lazımmdır ki, bugünkü reallıq onu göstərir ki, ölkə rəhbərliyi bölgələrin inkişafını davamlı prioritet kimi qəbul edib və bu səfər bu yanaşmanın praktiki ifadəsinə çevrilmişdir”.

***Səbinə Hüseynli***

# “Türk dünyasında yeni siyasi mərhələ başlayır”



“Məhəmməd Əmin Rəsulzadənin qurduğu Azərbaycan Cümhuriyyəti Türk dünyasına yol göstərən bir Cümhuriyyət oldu. Daha sonra Mustafa Kamal Atatürkün yaratdığı Türkiyə Cümhuriyyəti müasir Türk dövlətləri üçün örnək modelə çevrildi”. Bunu SİA-ya açıqlamasında türkiyəli politoloq Hasan Oktay deyib.

Onun sözlərinə görə, Rəsulzadə ilə başlanan, Atatürklə davam edən bu Cümhuriyyət yolu 1991-ci ildə Sovetlər İttifaqının süqutu ilə yeni mərhələyə qədəm qoydu: ”Beləliklə, Azərbaycan, Qazaxıstan, Türkmənistan, Qırğızıstan və Özbəkistan müstəqil dövlətlər kimi Türk Dövlətləri Təşkilatını yaratdılar. Bu çərçivədə Türkiyə ilə Azərbaycan arasında formalaşan qardaşlıq münasibətləri bütün Türk dövlətləri üçün nümunəyə çevrildi.



Xəzərin qərbində, Cənubi Qafqazın strateji mərkəzində yerləşən Azərbaycan Rusiya və İranın Ermənistandan istifadə etməklə yaratdığı təzyiqlərlə üzləşsə də, Türkiyə ilə birlikdə bu çətinlikləri aşmağı bacardı. Əvvəlcə işğal altında olan yeddi rayon azad edildi, ardından Dağlıq Qarabağ problemi həll olundu. İndi isə Türkiyə-Ermənistan-Azərbaycan arasında imzalanması gözlənilən üçtərəfli sülh sazişi ilə regionda yeni siyasi mühit formalaşacaq və Azərbaycan Türk dövlətləri arasında mühüm körpü rolunu daha da gücləndirəcək. Türkiyə-Azərbaycan münasibətləri digər Türk dövlətləri üçün də nümunə xarakteri daşıyır. Bu münasibətlərin inkişafı nəticəsində BMT, NATO, Şanxay Əməkdaşlıq Təşkilatı kimi qurumlarla yanaşı, Türk Dövlətləri Təşkilatının da yüksələn güc kimi beynəlxalq arenada mövqeyi möhkəmlənir.

XX əsrdə Türklərə qarşı tətbiq olunan məhvetmə strategiyasına baxmayaraq, Məhəmməd Əmin Rəsulzadənin yaratdığı Azərbaycan Xalq Cümhuriyyəti Türk dünyasında azadlıq ideyasının rəmzinə çevrildi. Cənubi Qafqaz Türk dünyası üçün əsas açar bölgələrdən biri olduğundan, bu Cümhuriyyət cəmi iki ilə yaxın mövcud olsa da, onun yandırdığı azadlıq məşəli sönmədi. Osmanlı imperiyasının süqutundan sonra Mustafa Kamal Atatürk tərəfindən qurulan Türkiyə Cümhuriyyəti bütün Türk dünyası üçün əsas dayağa çevrildi. Rəsulzadənin Cümhuriyyəti və İranda hakimiyyətdə olan Qacar dövləti süqut etdikdən sonra Türk dünyasının yeganə müstəqil dövləti olaraq Türkiyə Cümhuriyyəti mübarizəsini davam etdirdi.

1991-ci ildən sonra müstəqillik qazanan Türk dövlətləri ilə birlikdə bu yol yeni tarixi mərhələyə qədəm qoydu. Türk Dövlətləri Təşkilatı isə bu prosesin siyasi, iqtisadi və mədəni əsas platforması kimi mühüm rol oynamağa başladı”.

***Günel Fərzəliyeva***

# Tibb hüququ: həkim səhvi və pasiyentin təzminat hüququ

***Tibb sahəsində səhvlərin (təhlükəli, qeyri-uyğun və ya peşəkar standartlara cavab verməyən tibbi müdaxilələrin) hüquqi nəticələri böyük əhəmiyyət kəsb edir. "Həkim səhvi" dediyimiz zaman əsasən həkim və ya başqa tibbi işçinin sahəsində tələb olunan peşəkar qaydalara əməl etməməsi, səhv diaqnoz qoyulması, səhv müalicə metodunun seçilməsi, lazımi xəbərdarlığın verilməməsi, gözlənilməyən ciddi komplikasiyaların düzgün idarə olunmaması və s. hallar nəzərdə tutulur. Bu kimi səhvlərin nəticəsində pasiyent sağlamlıq itkisi, əlavə xərclər, gələcək iş qabiliyyətinin (işləmək qabiliyyətinin) itirilməsi, bəzən isə ölümün baş verməsi mümkündür. SİA mövzu ilə bağlı araşdırma aparıb.***



## Həkim səhvi məsələsində qanunvericilik üç əsas məsuliyyət növünü müəyyən edir:

Cinayət məsuliyyəti - səhv nəticəsində xəstə ciddi zərər görmüşsə və ya ölümsə,









həkim və ya tibbi müəssisə cinayət məsuliyyətinə cəlb oluna bilər.

Mülki (vətəndaş) məsuliyyəti - pasiyent səhv nəticəsində vurduğu zərəri tıbb müəssisəsindən və ya tibbi işçidən tələb edə bilər, yəni təzminat hüququ yaranır.

Peşəkar / inzibati məsuliyyət - lisenziyaların dayandırılması, həkimin peşəkar fəaliyyətinin məhdudlaşdırılması, protokollara əməl olunmaması halında tədbirlər görülməsi.

Pasiyentin hüquqları - məsuliyyətdən irəli gələn hüquqlar arasında tibbi xidmətin keyfiyyətli olması, həkim tərəfindən lazımi məlumatın verilməsi (müalicə riskləri, alternativ metodlar), müdaxilə üçün razılığın alınması, səhv halında zərərin qarşılanması (təzminat) və şəffaflıq kimi elementlər yer tutur.

## Dünyada həkim səhvi və pasiyentin təzminat hüququ

*Ümumi hüquqi yanaşma*

Bir çox ölkədə tibbi səhv məsuliyyəti "negligence" (laqsarlıq / peşəkar standartlara əməl etməmə) əsasında qurulur. Məsələn, Kanada-da həkimin səhv standartlara cavab verməyən davranışı əsasdır.

Pasiyent, səhv nəticəsində zərər görmüşsə, adətən üç tip təzminat tələb edə bilər:

maddi (xəstəxana xərcləri, əlavə müalicə xərcləri, iş qabiliyyətinin itirilməsi)

qeyri-maddi / mənəvi zərər (ağrı-sıxıntı, həyat keyfiyyətinin pisləşməsi)

Həkim yalnız səhv buraxmamış ola bilər, bəzi ölkələrdə "qüsursuz məsuliyyət"sistemləri də var - məsələn, İsveç-də pasiyent səhvdən asılı olmayaraq bəzi hallarda təzminat ala bilər.

"İnformed consent" (müalicədən və əməliyyatdan əvvəl pasiyentin tam məlumatlandırılması və razılığının alınması) beynəlxalq təcrübədə mühüm hüquqi prinsipdir.

Tibbi səhvlərlə bağlı məsuliyyət yalnız mülki hüquqdan (təminat tələb etmək) deyil, həm də cinayət və inzibati məsuliyyətdən irəli gələ bilər - ciddi nəticə olmuşsa (ölüm, sağlamlığın ağır itkiləri) həkim cinayət məsuliyyətinə cəlb oluna bilər.

## Məsələn, Türkiyə və digər qonşu ölkələr

Türkiyə-də tibbi müalicə nəticəsində zərər görmüş pasiyentlər həm maddi, həm mənəvi təzminat tələbi qaldıra bilərlər: müalicə xərcləri, gələcək baxım xərcləri, iş qabiliyyətinin itkisi, ağrı-sıxıntı və s.

Türkiyədə həkim və ya xəstəxana üçün mütləq peşəkar məsuliyyət sığortası mövcuddur.

## Azərbaycanda həkim səhvi və pasiyentin təzminat hüququ

*Qanunvericilik bazası*

Azərbaycan Respublikasının Mülki Məcəlləsi-nin (Civil Code) "hüquq pozulması" (delikt) anlayışı üzrə müddəaları tətbiq edilir: "mənəvi və ya maddi zərəri verməklə digər şəxsin hüquqla qorunan mənafelərinə zərər yetirən qəsdən və ya ehtiyatsızlıqla baş vermiş əməldir".

Hüquqi mənbəyə görə: "Tibbi müalicə müəssisəsində sağlamlığa dəyən zərərə (əməliyyat, səhv diaqnoz və s.) görə kompensasiya ümumi qaydada ödənilir. Əgər zərərçəkmiş sübut edə bilsə ki, zərər onun öz günahından baş verməyib, onda məsuliyyət yaranır."

Həmçinin, məlumdur ki, Azərbaycanda həkimlərin tibbi xidmətlə bağlı məsuliyyətinin gücləndirilməsi üçün qanunvericilik çərçivəsində layihələr mövcuddur. Məsələn, dövlət sektorunda tibbi xidmət göstərilməsi zamanı qaydaların pozulması halında cəza tədbirlərinin artırılması planlaşdırılır.

## Məsuliyyət növləri və pasiyentin hüququ

Mülki məsuliyyət: Pasiyent xəstəxana və ya həkim qarşısında zərərin ödənilməsini tələb edə bilər - maddi və mənəvi təzminat.

Cinayət və inzibati məsuliyyət: Məsələn, xidmət göstərilməməsi və ya tibbi protokollara əməl edilməməsi halları cinayət məsuliyyətinə gətirilə bilər. Son xəbərlərdə qeyd edilmişdir ki, "tibbi yardım göstərməmək" maddəsi üzrə cəzanın sərtləşdirilməsi nəzərdə tutulur.

Pasiyentin hüququ - informasiya almaq, razılıq vermək, səhv halında təzminat tələb etmək kimi hüquqlar mövcuddur, lakin bunların əməli realizasiyası hələ bəzi çətinliklərə malikdir.

## Tövsiyələr və inkişaf üçün fürsətlər

Azərbaycanda tibbi səhv iddialarının araşdırılması üçün müstəqil ekspertiza mexanizminin gücləndirilməsi faydalı olardı.

Pasiyent hüquqlarının daha geniş şəkildə yayılması və tibbi xidmətlərdə şəffaflığın artırılması vacibdir.

Həkimlərin peşəkar məsuliyyətini azaltmaq üçün keyfiyyətli təlim, sertifikat sistemlərinin və peşəkar sığortanın tətbiqi önəmlidir. Hüquqi prosedurların sadələşdirilməsi, məhkəmə xaricində təzminat mexanizminin möhkəmləndirilməsi (məsələn, vasitəçi komissiyaların yaradılması) pasiyent üçün əlçatanlığı artırardı.

Tibb hüququ sahəsində "həkim səhvi və pasiyentin təzminat hüququ" mövzusu həm tibbi, həm də hüquqi baxımdan çoxşaxəlidir. Dünyada müxtəlif ölkələrdə fərqli yanaşmalar mövcud olsa da əsas prinsip - tibbi xidmətin peşəkar standartlara uyğun olması və səhv halında pasiyentin adekvat qorunmasıdır. Azərbaycanda isə bu sahədə qanunvericilik bazası mövcuddur.

***Ayşən Vəli***

ARAŞDIRMA

# Xəyanətin yeni detalları üzə çıxır

Bu günlər cəmiyyətdə müzakirə olunan əsas mövzulardan biri də uzun illər dövlət aparatında yüksək vəzifə tutan Ramiz Mehdiyevin və dəstəsinin üzvlərinin dövlətə xəyanət, dövlət çevrilişinə cəhd etmələridir. Sual olunur, niyə, səbəb nədir? Birinci formatda birmənalı şəkildə demək olar ki, hakimiyyət ehtirası, qısqanclıq, qisasçılıq və hüdudsuz kin və küdurət. İkincisi isə, onların hər birinin ayrı-ayrılıqda müəyyən xarici dairələrə, o cümlədən Rusiyanın xüsusi xidmət orqanlarına bağlı olmalarıdır. Hələ gənclik illərindən Rusiyanın xüsusi xidmət orqanları qarşısında müxtəlif öhdəliklər götürdüklərindən tapşırıqları yerinə yetirməyə çalışıblar. Hər birinin kifayət qədər yaşları və başları, ən əsası milyardlarla talan etdikləri pul-paraları olduğu halda xəyanət etməyə lüzum vardımı? Nəzərə almaq lazımdır ki, agent heç zaman üzərinə götürdüyü öhdəliklərdən imtina edə bilməz. Onlar ölənə qədər agent olaraq qalırlar.

Baxın, Prezident Administrasiyasının və Milli Elmlər Akademiyasının sabiq rəhbəri Ramiz Mehdiyevin 88 yaşı var, lakin yenə də dinc durmur. Çünki onu sakit durmağa, sabit həyat sürməyə qoymurlar. Deyirlər ki, bunu et, onu həyata keçir, sən də qazan, biz də mənfəət əldə edək. O da məcburdur. Təbii ki, zamanında yazılı formada qələmə aldığı öhdəlik sənədi var. Məhz o sənədin üzə çıxa biləcəyi qorxusundan, verilən əmrləri yerinə yetirməyə cəhd edir. Özü də o zaman ki, Azərbaycan 30 il erməni işğalı altında olmuş torpaqlarını azad etmək üçün səfərbər olduğu məqamda təxribatçı qruplar meydan çıxdılar. Hər kəsə Müdafiə Nazirliyini Baş qərargah rəisi, general Nəciməddin Sadıqovun ordumuza etdiyi xəyanətlər barədə kifayət qədər faktlar məlumdur. Heç şübhəsiz ki, onu ordumuza xəyanət etməyə Rusiya kəşfiyyat orqanları təhrik edib. Söz yox ki, o tək deyil. Onunla çiyin -çiyinə eyni təxribat mövqe sərgiləyən, fəaliyyət yolu tutan Ramiz Mehdiyev və dəstəsinin üzvləri də olub. Lakin Azərbaycan xalqı birlik və bərabərlik nümayiş etdirdi, Ali Baş Komandan, Prezident İlham Əliyevin ətrafında sıx birləşməklə daxildəki və xaricdəki məkrli qüvvələrə göz dağı çəkdi və erməni terror maşınını məhv edərək torpaqlarımızın azadlığına nail oldu.

## Siyasi irsinə xəyanət bağışlanmaz cinayətdir

İndi üzə çıxan və faktlarla sübuta yetirilən hadisələr təsdiq edir ki, Ramiz Mehdiyev və dəstəsi ölkədə qarşıdurma yaratmaq, dövlət çevrilişi etmək kimi cinayətlərin törədilməsinə uzun illər hazırlıqlar görüblər. Sadəcə cəmiyyət tərəfindən dəstək ala bilmədiklərindən, həm də situasiya imkan vermədiyindən bəd niyyətlərini həyata keçirməyiblər. Ancaq fakt faktlığında qalır ki, vətənə xəyanətdə, dövlət çevrilişinə cəhd maddələri ilə haqqında cinayət işi qaldırılaraq həbs olunan Prezident Administrasiyasının keçmiş rəhbəri Ramiz Mehdiyev və dəstəsinin üzvləri olan sabiq baş nazir Novruz Məmmədov, Qaçqınlarla İş üzrə Dövlət Komitəsinin sabiq sədri Əli Həsənov, Prezidentin sabiq köməkçisi Əli Həsənov, Bakının sabiq meri Hacıbala Abutalıbov, BDU-nun keçmiş rektoru Abel Məhərrəmov, Azərbaycan Prezidentinin keçmiş Mətbuat katibi Azər Qasımov, keçmiş Baş Qərargah rəisi, general Nəcməddin Sadıqov, XİN rəhbəri Elmar Məmmədyarov, sabiq milli təhlükəsizlik naziri Eldar Mahmudov, keçmiş nəqliyyat naziri Ziya Məmmədov və digərləri Rusiyanın müxtəlif dairələrinə bağlı şəxslər olublar. Hətta Ramiz Mehdiyevin Rusiya Təhlükəsizlik Şurasının katibi Nikolay Patuşevə məktub yazaraq ondan Azərbaycanda planlaşdırdıqları dövlət çevrilişinə dəstək verməlerini xahiş edib. Bəziləri belə məktubun olmadığını, onun mövcudluğuna inanmadıqlarını iddia etsələr də, təqdim etdiyimiz fakt Ramiz Mehdiyevin, həqiqətən də, xarici ölkənin köməyi ilə Azərbaycanda hakimiyyət








çevrilişi planı gerçəkləşdirmək xülyasına düşdüyünü göstərir. Məktubun üzə çıxan mətnində müxtəlif iyrənc məsələrdən söhbət açılır. "Dövlət idarəçiliyi sistemində islahatlar" adlı məktubun giriş hissəsində, son illərdə dövlət idarəetmə sistemini, eləcə də Azərbaycanın iqtisadi həyatını əhatə edən dərin böhranın radikal islahatlar və dəyişikliklər aparılmasını tələb etdiyi vurğulanır.

R.Mehdiyev qeyd edir ki, mövcud idarəetmə strukturunun qeyri-effektivliyi bir tərəfdən, indiki hakimiyyətin xarakteri, adətləri və baxışları ilə izah olunur, digər tərəfdən isə bu struktur iflic olmuş avtoritarizm ruhu ilə yoğrulub. Bu idarəetmə sisteminin əsas xüsusiyyətləri yalnız referendum vasitəsilə dəyişdirilə bilər.

Yeni dövlət idarəetmə formasını və prinsiplərini işləyib hazırlayarkən, ilk növbədə Azərbaycan xalqının siyasi psixologiyasını, dövlətə olan ənənəvi gözləntilərini nəzərə almaq, sosial-iqtisadi həyatın durğunluğuna səbəb olan gerçək amilləri dərk edib aradan qaldırmaq lazımdır.

Uzunillik idarəçilik təcrübəm, strateji dövlət orqanlarının rəhbəri kimi topladığım biliklər, habelə müasir Azərbaycanın siyasi həyatına və tarixinə dair elmi tədqiqatlarım mənə aşağıdakı dövlət idarəetmə sisteminin formalaşdırılmasının zəruriliyini göstərir:

1. Hakimiyyət ümumi qəbul edilmiş demokratik prinsiplərə əsasən, üç qoldan ibarət olacaq: Qanunverici, İcraedici və Məhkəmə hakimiyyəti. Bu hakimiyyət qollarının fəaliyyətinə nəzarəti Dövlət Şurası həyata keçirəcək. Şura 50 üzvdən ibarət olacaq - cəmiyyət tərəfindən böyük hörmət qazanan, təcrübəli dövlət xadimləri, iqtisadçılar, hüquqşünaslar, elm və mədəniyyət nümayəndələri. Şura seçkili orqan olacaq və referendum yolu ilə formalaşacaq. Onun rəhbəri - Dövlət Şurasının Sədri xalq tərəfindən seçilən şura üzvlərinin öz sıralarından səsverməsi yolu ilə seçiləcək.Sədri vəzifədən uzaqlaşdırmaq da yalnız Şura üzvlərinin səsverməsi nəticəsində mümkün olacaq. Dövlət Şurası ölkədəki siyasi, sosial və iqtisadi proseslər üzərində tam nəzarət mexanizminə sahib olacaq. Həmçinin Konstitusiya Məhkəməsi və Təhlükəsizlik Şurasının funksiyalarını yerinə yetirəcək.

Ramiz Mehdiyevin yazdığı məktubda o da vurğulanır ki, Dövlət Şurası parlamentin qəbul etdiyi qanun layihələrini və hökumətin qərarlarını təsdiqləyəcək, zərurət yarandıqda veto hüququndan istifadə edə biləcək. Şura həmçinin güc strukturlarının, məhkəmə hakimiyyətinin, Mərkəzi Bankın rəhbərlərinin, universitet rektorlarının təyin olunmasına dair namizədləri irəli sürmək səlahiyyətinə malik olacaq.

2. İcra hakimiyyətinə ölkənin Baş naziri rəhbərlik edəcək. O, parlament seçkilərinin nəticələrinə əsasən, formalaşacaq hakim partiyanın başçısı olacaq. Ən çox səs toplayan partiyanın rəhbərinə sosial-iqtisadi xətti həyata keçirəcək hökuməti formalaşdırmaq hüququ veriləcək.

3. Qanunverici orqan - parlament ümumxalq seçkiləri yolu ilə hər 7 ildən bir formalaşacaq. Parlament hökumətin fəaliyyətinə dair hesabatları dinləyəcək, sosial-iqtisadi siyasətin həyata keçirilməsinə cavabdeh nazirləri təsdiq edəcək (güc strukturları istisna olmaqla).

4. Əvvəlki kimi, məhkəmə hakimiyyəti Ali Məhkəmə və ona tabe strukturlar vasitəsilə həyata keçiriləcək.Belə dəyişikliklər ölkəni prezident idarəçiliyindən parlamentar respublika modelinə keçirəcək. Bu model hakimiyyət üzərində səmərəli nəzarət mexanizmini təmin edəcək, avtoritarizmin və şəxsi hakimiyyət meyillərinin əsaslarını xeyli dərəcədə neytrallaşdıracaq.Bununla yanaşı, bu sistem dövlət fəaliyyətinə ictimai nəzarəti gücləndirəcək.Eyni zamanda, belə bir model demokratik seçkilərin keçirilməsinə şərait yaradacaq, bu isə öz növbəsində ölkənin beynəlxalq imicini yaxşılaşdıracaq, müxtəlif siyasi qüvvələrin fəaliyyətinə geniş imkanlar açacaq və vətəndaş cəmiyyətinin əsaslarını möhkəmləndirəcək".

## Xəyanətin iştirakçılarının siyahısında dağıdıcı müxalifət və xaricdəki antimilli ünsürlər də təmsil olunurlar

Həm də fakt ondan ibarətdir ki, Ramiz Mehdiyevin dəstəsinə daxil olan şəxslərin siyahısı genişdir. Yəni dəstə yuxarıda adları qeyd olunan şəxslərdən ibarət deyil. Onların sırasında Milli Məclisin indiki və keçmiş deputatları, nazirlər və komitə sədrləri, icra hakimiyyətlərinin hazırkı və sabiq başçıları, sayt, qəzet baş redaktorları. QHT rəhbərləri də da var. Ümumilikdə onların sayının 200 nəfərə qədər olduğu qeyd edilir. Təbii ki, istintaq orqanları araşdırmalarını genişləndirməklə xəyanətə dair yeni detallar üzə çıxarmaqla yanaşı dəstənin üzvü olan yeni simaların da kimliyini aşkarlayacaq. Diqqətçəkən məqam ondan ibarətdir ki, Ramiz Mehdiyevin dəstəsinin üzvləri siyahısında Azərbaycanın dağıdıcı müxalifətinin təmsilçiləri və xaricdəki antimilli ünsürlər də var. Hansı ki, onlar bütün fəaliyyətlərini ölkəmizin adının, nüfuzun aşağılanmasına, qələbələrinə kölgə salmağa yönəldiblər. Niyə, səbəb nədir? Onlar axı Azərbaycan adını daşıyırlar? Bəli, azərbaycanlıdılar, Azərbaycanda doğulublar, hər kəs kimi onlar da ölkəmizin imkanlarından, demokratik mühitdən, sosial, iqtisadi uğurlarından bəhrələniblər. Ancaq ölkəmizə qarşı qarayaxma kampaniyası aparırlar. Xaricdəki antimilli ünsürləri hürməyə məcbur edən amil Ramiz Mehdiyevin və dəstəsinin onlara ümumilikdə 48 milyon ABŞ dolları verməsidir. Dağıdıcı müxalifət, xüsusilə də AXCP sədri Əli Kərimli, Milli Şuranın rəhbəri Cəmil Həsənli, Müsavatın indiki və keçmiş başqanları İsa Qəmbər və Arif Hacılı Ramiz Mehdiyev vasitəsi ilə 18 milyon manat maliyyə vəsaiti aldıqlarından daim dövlətçiliyimizə qarşı qərəzli mövqedə dayanıblar.

Hətta o dərəcə R.Mehdiyevdən asılı vəziyyətdə olublar ki, 44 günlük Vətən Müharibəsi dönəmində bütün siyasi, ictimai təşkilatlar erməni vandalizminə qarşı tədbirlərin görülməsi üçün beynəlxalq təşkilatlara, ayrı-ayrı ölkələrin parlamentlərinə müraciət edərkən Milli Şura, AXCP və Müsavat imzalanan birgə bəyanatlara, ünvanan müraciətlərə qoşulmaqdan imtina etmişdilər. AXCP sədri Əli Kərimli, Milli Şuranın rəhbəri Cəmil Həsənli, Müsavatın indiki və keçmiş başqanları İsa Qəmbər və Arif Hacılının erməni revanşistəri kimi sayıqlamalarınında arxasında heç şübhəsuiz ki, R.Mehdiyevin təlimatı, tapşırığı dayanıb. Həm də artıq sübuta yetirilir ki, 2019-cu ilin oktyabrın 19-da Milli Şuranın keçirdiyi icazəsiz aksiyanın məqsədi R.Mehdiyevin Prezident Administrasiyasının rəhbəri vəzifəsindən uzaqlaşdırılmasının qarşısının alınmasına yönəlmişdir. Lakin alınmadı və R.Mehdiyev həmin ilin oktyabrın 23-də tutduğu vəzifədən kənarlaşdırıldı. Bundan sonra Milli Şura əski mövqeyinə qayıtdı və bu günə qədər də susmaqdadır. Çünki ağaları sıradan çıxarılıb pul və icazəsiz aksiyaların keçirilməsinə göstəriş verən yoxdur.

Sular durulduqca aydın olur ki, 2013-cü il prezident seçkiləri ərəfəsində əvvəl "Ziyalılar forumu"nun, ardıca isə "Milli Şura"nın yaradılması və buraya Rusiyadakı "Milyarderlər ittifaqı"nın üzvlərinin də cəlb edilməsinin arxasında Ramiz Mehdiyev dayanırmış. Rüstəm İbrahimbəyovun Milli Şuranın "vahid namizəd" kimi irəli sürülməsi və ardınca Rusiya Prezidenti V.Putinə göndərilən minnətdarlıq məktubu təsadüfi deyildi. Dağıdıcı müxalifətin R.Mehdiyevin ifşa edilməsinə münasibət bildirməməsi, tam sükut içində olmaları təsdiq edir ki, dağıdıcı müxalifətlə R.Mehdiyev arasında sıx əlaqələr olub.

***İLHAM ƏLİYEV***

# Kriptovalyuta bazarında nə baş verir? Çöküşdən sonra yüksəliş, yoxsa...

**КАК ИЗМЕНИЛАСЬ СТОИМОСТЬ КРУПНЕЙШИХ КРИПТОВАЛЮТ ЗА НЕДЕЛЮ** ИСТОЧНИК: COINDESK.

| Название криптовалюты | Капитализация | Цена на 20 октября (12:00 мск) | Цена на 27 октября (12:00 мск) | Изменение цены |
|---|---|---|---|---|
| Bitcoin | $2,29 трлн | $111 158,07 | $115 015,59 | +3,47% |
| Ethereum | $503,1 млрд | $4045,99 | $4170,92 | +3,09% |
| Binance Coin | $159 млрд | $1122,47 | $1151,91 | +2,62% |
| XRP | $158,2 млрд | $2,4718 | $2,6339 | +6,56% |
| Solana | $110,3 млрд | $193,16 | $200,68 | +3,89% |

kommersant.ru

**ИЗМЕНЕНИЯ ИНДЕКСА COINDESK 20 ЗА НЕДЕЛЮ** ИСТОЧНИК: COINDESK.




ARAŞDIRMA

İki həftəlik enişdən sonra kriptovalyuta bazarı bərpa olunmağa başlayıb: son bir həftə ərzində 20 ən böyük rəqəmsal aktivin dəyərini izləyən CoinDesk 20 indeksi təxminən 4% gəlir qazanıb. Ripple tərəfindən beynəlxalq köçürmələr üçün yaradılan kriptovalyuta XRP gəlirlərdə liderlik edib. Müsbət xəbərlərdən qaynaqlanan qiymət həftə ərzində 6,5%-dən çox artıb. Lakin, mütəxəssislər ”Kommersant Investments”-ə rəylərində qeyd edirlər ki, bazarda narahatlıq və qeyri-müəyyənlik hələ də hökm sürür, buna görə də gələcək tendensiyalar qeyri-müəyyəndir.

## Optimizm qayıdır

Oktyabrın əvvəlindən bəri bir neçə əhəmiyyətli eniş yaşayan və 3 aylıq ən aşağı səviyyəyə düşən kriptovalyuta bazarı tədricən itkilərini bərpa etməyə başlayıb. 20-27 oktyabr həftəsi ərzində CoinDesk 20 İndeksi 3,78% qazanaraq bazar ertəsi saat 12:00-a qədər 3842,68 bala çatıb. Alfa-Forex şirkətinin Müştəri Dəstəyi və Satış şöbəsinin müdiri Aleksandr Şnayderman qeyd edir ki, artım orta dərəcədə müsbət makroiqtisadi məlumatlarla dəstəklənib: ABŞ-da inflyasiya gözləntilərin altında idi və bu da FED-in yumşaq mövqeyinə ümidləri artırıb.

Əmək Statistikası Bürosunun məlumatına görə, sentyabr ayında istehlak qiymətləri indeksi 0,3%, illik inflyasiya isə 3% artıb. Reuters tərəfindən sorğu edilən analitiklər indeksin ay ərzində 0,4%, illik müqayisədə isə 3,1% artacağını gözləyirdilər.

Ekspertlərə görə, Donald Trampın Çinlə mümkün ticarət razılaşması ilə bağlı açıqlamaları nikbinliyi daha da artırıb. Bu, 2026-cı ildə inflyasiya risklərini azaldır və FED-in faiz dərəcəsinin endirilməsi şansını artırır. Bundan əlavə, CME məlumatlarına görə, Ethereum fyuçersləri son həftələrdə rekord səviyyəli açıq maraq gördü- təxminən 2,25 milyon müqavilə. Analitiklər hesab edir ki, bu, artan institusional tələbi göstərir və ETH-nin müvəqqəti olaraq Bitcoin-i üstələməsi ehtimalını artırır. CoinDesk-in məlumatına görə, son bir həftə ərzində Bitcoin-in qiyməti 3,47%, Ethereum-un qiyməti isə 3,09% artıb.

## Diqqət mərkəzində

XRP-in dəyəri ötən həftə ərzində tarixi artıma liderlik edərək 6,56% artdı və 6339 dollara çatdı. Mədən proqram təminatı hazırlayan ”Tehnobit” şirkətinin baş direktoru Aleksandr Peresiçanın sözlərinə görə, XRP-nin yüksəlişi layihə ilə bağlı bir neçə müsbət xəbərdən qaynaqlanıb. Ekspert qeyd edir ki, ötən həftə Ripple bank olmayan əsas broker Hidden Road-u 1,25 milyard dollara satın aldı və ”institusional müştərilərə xidmət göstərən qlobal çoxaktivli əsas brokerə sahib olan ilk kriptovalyuta şirkəti” oldu.

Bundan əlavə, ABŞ-da ilk XRP spot birja ticarət fondu olan REX-Osprey XRP ETF, 18 sentyabrda istifadəyə verildiyi gündən bəri cəmi 5 həftə ərzində idarə olunan aktivlərdə 100 milyon dollardan çox vəsait topladı. ”Bu, investorların Ripple ekosisteminin inkişafına olan ümidlərini əks etdirir”,- deyə Peresiçan deyir. Ripple şirkətinin baş direktoru Bred Qarlinqhaus da öz növbəsində 24 oktyabrda bildirib ki, XRP şirkətin əməliyyatlarının mərkəzindədir və uzunmüddətli strategiyasının mərkəzində qalır.

Lakin, bu xəbər artıq XRP-yə daxil edilib, ona görə də yeni bir artım əlavə korporativ və ya makroiqtisadi təşviqlər tələb edəcək,- deyə Aleksandr Peresiçan bildirib. ”Növbəti həftələrdə XRP-nin 2,50 dollara qədər korreksiyası daha çox ehtimal olunur. 3 dollar hədəfinə yalnız 3 ay ərzində çatmaq real görünür”, - deyə analitik iddia edir.

## Şübhəli perspektivlər

Mütəxəssislərə görə, daha geniş rəqəmli aktivlər bazarının da artım üçün əlavə təşviqlərə ehtiyacı olacaq. Belə ki, kripto bazarı ”çəkic və zindan arasında” qalıb. Narahatlıq və makroiqtisadi qeyri-müəyyənlik onun güclü böyüməyə nail olmasına mane olur, ABŞ hökumətinin davam edən bağlanması və ABŞ ilə Çin arasında ticarət müharibəsi isə onu aşağı salır. FED-in faiz dərəcəsinin endirilməsi və artan risk iştahası Bitcoin və digər məşhur kriptovalyutaların qiymətinə müsbət təsir göstərir, lakin bu amillər artıq qiymətləndirilir.

Aleksandr Şnaydermanun fikrincə, kripto investorları FED bu həftə keçiriləcək iclasına diqqət yetirəcəklər: ”FED sədri Jerome Powellin tonu növbəti 40 gün ərzində kripto bazarının və bütün riskli aktivlərin dinamikasını müəyyən edəcək. Tənzimləyicinin ritorikası yumşaq olarsa, bu, əksər kriptovalyutalar üçün artıma səbəb ola bilər”.

Şnayderman tövsiyə edir ki, investorlar Bitcoin üçün 112.000 dollar səviyyəsinə diqqət yetirməlidirlər: məhz bundan sonra 118.900 və 123.800 dollara yüksəliş başlaya bilər.

Bu arada, BitMEX kripto birjasının Biznes İnkişafı Direktoru Rafael Polanski xəbərdarlıq edir ki, kripto bazarı iki rəqabətli hal səbəbindən qarşıdakı ayda yüksək dəyişkənliyin davam etməsini gözləyə bilər. ”Bir tərəfdən, bəzi investorlar Bitcoin-i təhlükəsiz sığınacaq aktivi və artan inflyasiyaya qarşı hedcinq kimi görürlər. Digər tərəfdən, kriptovalyutaları riskli aktiv kimi görməyə davam edən bazar iştirakçıları var. Tənəzzül və iqtisadi böhran qorxuları gücləndikdə, investorlar qızıl kimi təhlükəsiz sığınacaqlar axtararaq bütün riskli aktivlərindən qaçırlar”- ekspert bildirib.

Ekspertlərin proqnozuna görə, FED-in gözlənilən faiz endirimi fonunda kriptovalyutaların hedcinq aktivi kimi qəbul edilməsi, çox güman ki, üstünlük təşkil etməyə başlayacaq. Bu, Bitcoin qiymətini daha da yüksəldəcək. Onların fikrincə, dekabr ayına qədər BTC-nin 120.000-125.000 dollara, ETH-in isə 4.600-4.800 dollara qayıdacağını gözləyə bilərik

***Elçin Bayramlı***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi” istiqaməti çərçivəsində hazırlanıb*



# Zəhməti ilə ucalan insan - Tahirə Məmmədova

Hər bir insan zəhmətinə, əməyinə, başqalarına göstərdiyi insani münasibətinə görə dəyərləndirilir və hörmət sahibi olur. Belə qayğıkeş, zəhməti və əməyi ilə tanınan və seçilən şəxslərdən bir də ”Bakı Metropoliteni” QSC-nin əməkdaşı Tahirə Məmmədovadır. Tahirə xanım işgüzarlığı, sərnişinlərə diqqət və qayğısı ilə seçilir. Yazının müəllifi olaraq bildirim ki, mən də Tahirə xanımı tanıyıram. Gülərüz, mehriban xanım olaraq Tahirə Məmmədova əlil arabası ilə metroya daxil olan əlillərin, yaşlı insanların, uşaqlı valideynlərin maneəsiz metroya minib, rahat, təhlükəsiz mənzil başına çatmasına yardımçı olur.



Tahirə xanım işində çox ciddidir, həm də məsuliyyətlidir. Bu da onun öz peşəsinə hədsiz dərəcədə bağlı olduğunu göstərir. Belə işgüzar və fəal əməkdaşının olmasına görə, ”Bakı Metropoliteni” QSC-nin rəhbərliyinə sərnişin məmnuniyyəti və minnətdarlığımızı bildiririk.

Fürsətdən istifadə edib peşəsinin vurğunu olan, xoş təbiətli, qəlbən səmimi olan Tahirə Məmmədovaya cansağlığı, bu səmərəli fəaliyyətində uğurlar arzulayıram.

***Hörmətlə:***
***Vasif Məmmədov***

SON SƏHİFƏ
SƏS
30 oktyabr 2025-ci il

# DİQQƏT: Türkiyədə baş verən son zəlzələ Azərbaycanda da gözlənilirmi?



## QURUM RƏSMİSİ AÇIQLADI

"Türkiyədə baş verən zəlzələnin Azərbaycana təsir ehtimalı sıfırdır". Bu sözləri SİA-ya açıqlamasında AMEA nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzinin baş direktoru Qurban Yetirmişli bildirib.

Onun sözlərinə görə, Azərbaycan ərazisində vəziyyət tam nəzarət altındadır və hazırkı zəlzələnin ölkəmizə hər hansı mənfi təsiri yoxdur: "Zəlzələnin Azərbaycana təsir ehtimalı sıfırdır. Yəni konkret şəkildə heç bir təsiri ola bilməz. Çünki həm texnoloji qurğular, həm cihazlar quraşdırılıb. Orada tamamilə fərqli laylar, bir-biri ilə əlaqəli olmayan dərinlik qırılmaları müşahidə olunur. Buna görə də əsas etibarilə hər şey nəzarət altındadır.

Təsir ola bilərdi, əgər hadisə yaxın məsafədə baş versəydi. Yəni zəlzələnin episentri daha böyük silkələnməyə səbəb olsaydı və burada olan cihazları aktivləşdirsəydi. Amma artıq sübut olunub ki, Azərbaycanın heç bir bölgəsində bu hadisəyə birbaşa təsir göstərə biləcək ocaqlar yoxdur. Qaldı ki ölkəmizin seysmoloji zonalarında, seçilmiş müşahidə məntəqələrində elə bir aktiv sahə yoxdur ki, orada güclü, katastrofik zəlzələ ehtimalı olsun. Sadəcə, kiçik təkanlar var və onlar hər gün davam edir. Hətta elə günlər olur ki, gecə ərzində 17-yə qədər zəif təkan qeydə alınır. Bunlar cihazlar tərəfindən izlənilir, lakin təhlükə yaratmır. Yəni narahat olmağa əsas yoxdur. Dediyim kimi, Azərbaycanın seysmik baxımdan fəal olan zonalarında belə 6 və ya 7 baldan yuxarı zəlzələ ehtimalı mümkün deyil".

***Arzu Qurbanlı***


# "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# "Yuventus"un yeni baş məşqçisi açıqlandı



İki gün əvvəl İqor Tudoru istefaya göndərən "Yuventus"un yeni baş məşqçisi müəyyənləşib. Qol.az xəbər verir ki, bu barədə insayder Canluka di Marzio məlumat yayıb. Turin təmsilçisi İtaliya millisinin sabiq çalışdırıcısı Luçiano Spaletti ilə anlaşıb. Tərəflərin yaxında 2026-cı ilin yayınadək müqavilə imzalayacaqları bildirilib.

Qeyd edilib ki, mütəxəssisin "Yuventus"un yeni baş məşqçisi kimi rəsmi təqdimatı cümə axşamı baş tutacaq.

# "Sovetski" ərazisində tarixi binalar sökülməyəcək - BŞİH

**"Müxtəlif KİV-lərdə keçmiş "Sovetski" adlanan ərazidə tarixi binaların sökünütüsü və onlara müdaxilə ilə bağlı yayılmış məlumatlarla bağlı bildiririk ki, qeyd edilən ərazidə rəsmi dövlət reyestrində olan heç bir tarixi bina, o cümlədən tarixi əhəmiyyət kəsb edən digər binaların söküntüsü nəzərdə tutulmayıb." Bu barədə SİA-ya Bakı Şəhər İcra Hakimiyyəti Mətbuat Xidmətindən xəbər verilib.**



Qeyd edilib ki, hazırda bu ərazidə yalnız qəzalı vəziyyətdə olan, istismar müddətini başa çatdırmış binaların söküntüsü həyata keçirilir: "Mirzə Fətəli 31 ünvanında yerləşən binaya gəlincə isə, söküntü sözügedən binada deyil ona bitişik olan qəzalı binada həyata keçirilib. Söküntü işləri başa çatdırıldıqdan sonra bu binanın əsaslı bərpası nəzərdə tutulub. Sonda bir daha media qurumlarına müraciət edərək xahiş edirik ki, yalnız dəqiqləşdirilmiş məlumatları yaysınlar. Bu ərazidə 3 qurumun nümayəndələrindən ibarət xüsusi komissiya fəaliyyət göstərir və hər bir bina ilə bağlı birgə rəy verilir".

## ELAN

Şirvan Dövlət İqtisadiyyat və humanitar kollecinin 040101-Fiziki tərbiyə müəllimliyi ixtisası üzrə tam kursu bitirmiş Əbilov Natiq Malik oğluna verilmiş AA 089188 nömrəli, 7927 qeydiyyatlı diplom itdiyi üçün etibarsız sayılır.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 3000**